RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 46 (9213) 1 MART 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın sülh çağırışı regionda təhlükəsizliyin yeganə təminatıdır



## Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar respublikamızın mövqelərini daha da möhkəmləndirib

**Vətən müharibəsindən sonra Azərbaycanın yaratdığı yeni reallıqlar regionun təhlükəsizliyinin yeganə təminatçısıdır. Ermənistan nə qədər cidd-cəhdlə, müxtəlif manevrlərlə bu reallıqlardan yan keçməyə, tərs mütənasib davranış ortaya qoymağa, sabitliyin təmin olunmasına qarşı çıxmağa çalışsa da, yekunda Azərbaycanın istədiyi olacaq. 44 günlük müharibədə olduğu kimi.**

### İlham ƏLİYEV: "Biz haqqın, ədalətin tərəfdarıyıq"

Torpaqlarımızın işğaldan azad edilməsindən ötən müddət ərzində Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı bir neçə platformada müzakirələr aparılıb. Moskvada və Brüsseldə aparılan danışıqlarda Azərbaycan daim sülhə tərəfdar olduğunu göstərib, münasibətlərin normallaşdırılması istiqamətində konstruktiv təkliflər ortaya qoyub.

Lakin istər Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, istərsə də Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə aparılan müzakirələrdə müəyyən razılaşmalar əldə olunsa da, Ermənistan davamlı şəkildə imzaladığı bəyanatların, üzərinə götürdüyü öhdəliklərin ruhuna və məzmununa uyğun olmayan davranış ortaya qoyub. Nə 10 noyabr Bəyanatının müddəaları, nə də sonrakı razılaşmalar praktiki olaraq icra olunmayıb. Rusiya sülhməramlılarının olduğu Qarabağda hələ də Ermənistan ordusunun qalıqları qalmaqdadır. O cümlədən Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat əlaqəsinin yaradılması ilə bağlı öhdəliklərinə də əməl etməyib.

→ 4

## Azərbaycanla Kubanın ənənəvi dostluq münasibətləri var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündə Kuba Prezidentinin iştirakını məmnunluqla xatırladı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Kuba tərəfinə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Qoşulmama Hərəkatını daha da inkişaf etdirmək üçün səylərini bundan sonra da davam etdirəcəyini və ölkəmizin bu Hərəkatın beynəlxalq münasibətlərdə mühüm rol oynaması istiqamətində çalışdığını vurğuladı və dedi ki, dünyada postkovid dövrü ilə bağlı geniş müzakirələrə ehtiyac var.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi bu il başa çatacaq və Azərbaycan 4 il ərzində sədr ölkə olaraq yaxşı irs qoyub.

→ 2

Heydər Əliyev İli - 2023

## Ulu Öndərin amalları işığında gerçəkləşdirilən Böyük qayıdış

Ümummilli Liderin həmin dövrdə qarşısına qoyduğu digər vacib məsələ isə öz dədə-baba yurdlarından zorla didərgin salınan məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması idi.

Ulu Öndər hər zaman çıxışlarında qaçqın və məcburi köçkünlərin problemlərinə toxunur, həmin insanların ağrı-acılarını, çətinliklərini bölüşdüyünü ifadə edərək söyləyirdi ki, "Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".

Özünün də vurğuladığı kimi, qaçqın və məcburi köçkünlərin çətin yaşam şəraiti Ulu Öndəri daim narahat edirdi. Dəfələrlə çadır şəhərciklərinə yollanaraq oradakı vətəndaşlarımızın ağır şəraiti ilə şəxsən tanış olan dahi rəhbər problemlərdən çıxış yolları arayırdı və bu istiqamətdə əlindən gələn hər şeyi edirdi.

1994-cü ildə "Əsrin müqaviləsi" ilə Ulu Öndərin Azərbaycanda təməlini qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsaitin qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi hər birimizin yaddaşındadır. Eləcə də böyük şəxsiyyətin tükənməz səyləri sayəsində məcburi köçkünlərin çox çətin şəraitdə yaşamağa məcbur olduqları çadır düşərgələrinin mərhələli şəkildə ləğvinə başlanılmışdı.

→ 6

## Yurda dönüş bayramı

### Daha bir qrup ağalılı Od çərşənbəsində doğma ocağına qovuşdu



Bəli, Vətən müharibəsindəki parlaq zəfərdən sonra Azərbaycan tamamilə yeni, çağırışlarla dolu və uğurlu bir dövrə qədəm qoyub. Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı milli prioritet elan edərək o yerlərdə nəhəng bərpa və quruculuq işlərinə başlayan dövlətimiz Zəngilanın Ağalı kəndini çox qısa zamanda qurub bərpa edərək, zəfərdən sonra qayıdışın ilk ünvanına çevirib.

Vaxtilə Ağalıdan zorla didərgin salınan insanlar 2022-ci il iyulun 19-da öz yurdlarına qovuşaraq, "ağıllı kənd"lərində yeni həyata başlayıblar. Həmin tarixdən etibarən Ağalı kəndinə əhalinin mərhələli şəkildə köçürülməsinə başlanılıb.

Ötən il sentyabrın 7-də və 10-da isə daha 25 ailə Ağalı kəndinə köçürülüb. 30 illik yurd həsrəti bitən ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi yaşamağa başlayıblar.

Artıq Ağalıda həyat öz axarına düşüb, insanlar doğma kəndlərində xoşbəxt həyata başlayıblar, xoş günlərini də, bayramlarını da birgə qeyd edirlər. Daha ağalılılar əziz qonaqlarını sığındıqları məcburi köçkün evlərində yox, öz doğma ocaqlarında sevinclə qarşılayırlar. İndi ağalılı şagirdlər elmin sirlərinə öz kəndlərindəki məktəbə yollanaraq vaqif olurlar...

Ən əsası isə bu gün Ağalıdan top-tüfəng səsi deyil, yeni doğulan körpə səsi gəlir...

Dostları sevindirən, düşmənin bağrına ox kimi sancılan körpə səsi...

→ 4

## Rusiya "çempion" olacaqmı?

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda Azərbaycanla Ermənistan arasında normallaşma prosesində kimləri vasitəçi görməyimizlə və onlardan hansına üstünlük verib-verməməyimizlə bağlı qətiyyətli və təsbitlənmiş bir mövqe ortaya qoyub. Vasitəçi olaraq biz ABŞ, Avropa İttifaqı və Rusiyanı görürük.

Azərbaycan Rusiya ilə yaxşı münasibətləri saxlamaqda maraqlıdır. Lavrovun səfəri, eyni zamanda Azərbaycan üçün aktual olan Ermənistanla münasibətlərin normallaşması məsələsinin də müzakirəsini nəzərdə tuturdu. Ona görə ki, Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri kimi regiona qonşu olan yeganə ölkədir. Rusiyanın həm Azərbaycan, həm də Ermənistanla yaxşı münasibəti var. Bu baxımdan rəsmi Moskva Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına öz töhfəsini verə bilər.

→ 4

## Azərbaycan könüllüləri Türkiyədə on minlərlə zərərçəkənə xidmət göstəriblər



Artıq üçüncü həftədir ki, fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatya bölgələrindəki çadır şəhərciklərində könüllü kimi çalışan azərbaycanlı gənclər on minlərlə zərərçəkmiş şəxsə xidmət edir, eləcə də zəlzələ bölgələrindəki müxtəlif məntəqələrdə qida, geyim, dərman, gigiyenik vasitələr və müxtəlif yardımların boşaldılması, çeşidlənməsi, paylanmasını həyata keçirir, yerli əhaliyə səyyar şəkildə su və isti içkilər paylayır və digər dəstəkverici xidmətləri göstərirlər. Həmçinin könüllü gənclərimiz çörəkbişirmə və paylama məntəqəsində fəaliyyətə başlayıb, habelə ucqar kəndlərə səfər edərək humanitar fəaliyyətlərin həyata keçirilməsində fəal şəkildə iştirak ediblər.

Xüsusi vurğulamaq lazımdır ki, zəlzələ bölgəsindəki uşaqların sevimlisinə çevrilən Azərbaycan könüllüləri ötən həftə də bu bölgələrdə yaşayan həssas vəziyyətdəki minlərlə uşağa xidmət ediblər.

→ 11

## İrana qarşı sanksiyalar genişləndirildi

Molla rejimi, necə deyərlər, qazdığı quyuya özü düşüb. Bir tərəfdən ölkə daxilində gündən-günə daha da alovlanan iğtişaşlar, digər tərəfdən də beynəlxalq aləmin qınaqları və sanksiyalar məngənəsi Tehran hökumətinin vəziyyətini getdikcə daha da ağırlaşdırır. Qeyd edək ki, sanksiyalar müxtəlif səbəblərlə əlaqələndirilir. Belə ki, İranda insan haqlarının, ifadə azadlığının məhdudlaşdırıldığı beynəlxalq səviyyədə dəfələrlə gündəmə gətirilib. Eyni zamanda İran uzun müddətdir ki, nüvə fəaliyyətinə görə də Qərb ölkələrinin genişmiqyaslı sanksiyaları ilə qarşılaşıb. ABŞ İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid hesab edib.

İrandan Rusiyaya son vaxtlar müxtəlif növ silahların, həmçinin pilotsuz uçuş aparatlarının, kamikadze dronlarının satılmasını təsdiqləyən faktlar da İranı Qərbin sanksiyaları ilə üzləşdirib.

→ 11

# Azərbaycanla Kubanın ənənəvi dostluq münasibətləri var



Əvvəli 1-ci səh.

Dövlətimizin başçısı bu xüsusda təşkilatın təsisatlanması, onun parlament və gənclər şəbəkəsinin yaradılması və digər təşəbbüslərimizi qeyd etdi.

Əməkdaşlığımızın inkişafı üçün böyük perspektivlərin olduğunu bildirən Prezident İlham Əliyev bunun səhiyyə sahəsində xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı, həmçinin turizm, təhsil, kənd təsərrüfatı, mədəniyyət, əczaçılıq kimi sahələrdə əlaqələri inkişaf etdirmək üçün imkanların olduğunu dedi.

Ölkələrimizin ənənəvi dostluq münasibətlərini, beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatında sıx əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı pandemiya dövründə kubalı həkim və tibb işçilərinin Azərbaycanda fəaliyyətinin yüksək qiymətləndirildiyini dedi, bu amilin ikitərəfli əlaqələrimizin inkişafına əsaslı töhfə verdiyini vurğuladı.

Kubanın vitse-prezidentinin səfərinin münasibətlərimizin genişləndirilməsinə əlavə təkan verəcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycana səfərin onda xoş təəssüratla yadda qalacağına əminliyini ifadə etdi.

Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştiraka dəvətə və qəbula görə minnətdarlığını bildirən Salvador Antonio Valdes Mesa, ilk növbədə Kuba Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş etdi və onunla görüşünü məmnunluqla xatırladığını bildirdi.

Qonaq ənənəvi dostluq münasibətlərimizin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Fidel Kastronun mühüm rol oynadıqlarını qeyd etdi. O, bu il Ulu Öndərin anadan olmasının 100 illiyinin qeyd edildiyini xüsusi vurğuladı.

Salvador Antonio Valdes Mesa ölkələrimiz arasında münasibətlərin daha da inkişafında Kuba tərəfinin də ciddi siyasi iradəsinin olduğunu dedi.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin COVID-19-a qarşı mübarizə kimi çətin bir dövrə təsadüf etdiyini, lakin ölkəmizin təşkilata çox fəal və uğurlu sədrliyini davam etdirdiyini deyən qonaq Qoşulmama Hərəkatının inkişafı üçün ölkəmizin böyük işlər gördüyünü, təşkilata üzv dövlətlərə dəstəyini əsirgəmədiyini xüsusi vurğuladı və buna görə təşəkkürünü bildirdi.

Kubanın vitse-prezidenti dedi ki, beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimiz arasında sıx əlaqələr mövcuddur və Kubanın G77-nin sədri qismində əməkdaşlığımızı dərinləşdirmək və bu iki təsisat arasında münasibətlərin inkişafında maraqlı olduğunu, Cənub-Cənub əməkdaşlığının dərinləşməsi üçün çalışdığını qeyd etdi. Qonaq ölkəsinin illər ərzində blokadaya məruz qaldığını, amma Kuba xalqının mübarizə və azadlıq əzminin tükənmədiyini vurğuladı, BMT Baş Assambleyasında Kuba ilə əlaqədar təqdim olunan qətnamələrə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Azərbaycan və Kuba xalqlarının azadlıq uğrunda mübarizlik əzmlərinin oxşar cəhətlərdən olduğunu qeyd etdi, xalqımızın işğal və təcavüzlə heç zaman barışmadığını, öz torpaqlarımızı 30 ilə yaxın davam edən işğaldan azad etdiyimizi diqqətə çatdırdı.

Prezident İlham Əliyev dedi ki, Kuba xalqı dünyaya sübut etdi ki, azadlıq uğrunda mübarizədə bütün məhrumiyyətlərə dözüb və bizim Qələbəmizdə də Kuba xalqında olduğu kimi, mübarizlik hissi mühüm rol oynayıb. Bu oxşarlıq isə xalqlarımızı bir-birinə daha da bağlayır.

# "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Milli Fəaliyyət Planında icraçı qismində nəzərdə tutulmuş mərkəzi icra hakimiyyəti orqanlarına, publik hüquqi şəxslərə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə tapşırılsın, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının Auditorlar Palatasına və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına isə tövsiyə edilsin ki:

2.1. Milli Fəaliyyət Planının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq yaradılan Koordinasiya Şurasına (bundan sonra - Koordinasiya Şurası) və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına göndərsinlər;

2.2. Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası barədə hər il yanvarın 31-dək Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabat təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına və Koordinasiya Şurasına tövsiyə edilsin ki, Milli Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini birgə təhlil edib bu barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

4. Koordinasiya Şurasına tövsiyə edilsin ki, Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Milli Fəaliyyət Planından irəli gələn digər zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2023-cü il*

# S.İ.Bəktaşinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səadət İnayət qızı Bəktaşi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2023-cü il*

# Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib

Fevralın 28-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə ötən il ərzində aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsinə dair Nazirlər Kabinetində komissiyanın növbəti iclası keçirilib.



Dövlət Komissiyasından AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın yerinə yetirilməsinə dair 2022-ci ildə görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan verib. Eyni zamanda ölkədə insanların sağlamlığının qorunması, mənəvi-əxlaqi dəyərlərin aşınmasının qarşısının alınması zərurəti narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əhəmiyyətini ciddi şəkildə artırıb. Hesabat dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi sayəsində sözügedən dövlət proqramının həyata keçirilməsi istiqamətində aparılan işlərin səmərəliliyinin daha da yüksəldilməsi üçün müvafiq zəruri tədbirlər görülüb.

Hüquq-mühafizə orqanları tərəfindən 2022-ci il ərzində 10 min 640 fakt üzrə 5 ton 470 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyədən çıxarılması, müsadirə edilmiş narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 861 kiloqramının ölkəmizə qaçaqmalçılıq yolu ilə gətirilməsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar başlanmış cinayət işlərinin istintaqı nəticəsində 8 min 677 nəfərin cinayət məsuliyyətinə cəlb edilməsi, cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərdən 99 nəfərinin xarici ölkə vətəndaşı olması, narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayının 35 min 97 nəfər təşkil etməsi barədə məlumatlar iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Komissiyanın iclasında daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov, baş prokurorun birinci müavini Elçin Məmmədov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov, Dövlət Sərhəd Xidməti rəisinin müavini Firuz Şirinzadə, səhiyyə nazirinin müavini Nadir Zeynalov, gənclər və idman nazirinin müavini xanım İndira Hacıyeva təmsil etdikləri qurumlar tərəfindən bu sahədə aparılan mübarizə tədbirləri, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə çıxış edərək ətraflı məlumat veriblər.

İclasda son dövrlərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilməsi faktlarının, 2021-ci illə müqayisədə bəzi şəhər və rayonlarda narkotik vasitələrdən istifadə ilə bağlı göstəricilərin artmasından narahatlıq ifadə edilib. Bu cür halların qarşısının alınması üçün müvafiq dövlət qurumlarının və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və maarifləndirmə işinin aidiyyəti orqanlar tərəfindən kompleks şəkildə təşkil edilməklə daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

Sonda qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyətlərin gücləndirilməsi, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, narkoloji müalicə müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, reabilitasiya mərkəzlərinin yaradılması, təbliğat və maarifləndirmə işlərinin təsirli vasitələrlə təşkili, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, qeyri-hökumət təşkilatları ilə birlikdə sosial və maarifləndirmə xarakterli tədbirlərin həyata keçirilməsi və digər zəruri tədbirlərin icra edilməsi istiqamətində səmərəliliyin daha da artırılması ilə bağlı aidiyyəti qurumlar qarşısında konkret vəzifələrin qoyulmasına dair müvafiq qərar qəbul edilib.

# Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Azərbaycana səfərə gəlib

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç fevralın 28-də Azərbaycan Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Daha 55 Vətən müharibəsi iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 28-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sıra baxışında nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 366 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 55 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Qərbi azərbaycanlıların mülkiyyət hüququnun pozulmasına görə Ermənistan məsuliyyət daşıyır

"Azərbaycanlılara qarşı törədilmiş bütün hüquq pozuntuları kimi, mülkiyyət hüququnun pozulmasının nəticələrinin aradan qaldırılmasına görə də Ermənistan hökuməti məsuliyyət daşıyır. Ermənistan azərbaycanlılara məxsus mülkiyyətin və icma torpaqlarının qaytarılmasını təmin etməli, mülkiyyətə vurulmuş zərərə və ondan istifadənin qarşısının alınmasına görə yaranmış itkilərə görə kompensasiya ödəməlidir. Həmçinin azərbaycanlıların mülkiyyət hüquqlarının bərpasından irəli gələn bütün xərcləri ödəməli və digər lazımi tədbirləri görməlidir. Vurğulamalıyıq ki, maliyyə kompensasiyası sadəcə mülkiyyətə vurulmuş zərərə və ondan istifadə hüququnun qarşısının alınmasına görə tələb edilir. Maliyyə kompensasiyası geriyə qayıtmaq, Vətəndə yaşamaq hüququnu əvəz edə və onu aradan qaldıra bilməz".

Bu fikirləri AZƏRTAC-ın sorğusuna cavab olaraq Qərbi Azərbaycan İcmasının (QAİ) sözçüsü Ülviyyə Zülfiqar söyləyib.

O deyib: "İndiki Ermənistanda olan Azərbaycan mədəni irsinin bərpası və qorunmasına gəlincə, qeyd edək ki, bu, sülh və barışığın mühüm şərtidir. Biz bununla bağlı ilk növbədə BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə Ermənistan ərazisində olan azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsinə çalışacağıq. Zərər vurulmuş və Yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısı hazırlanmalı və Ermənistan hökuməti onları bərpa etmək və qorumaq öhdəliyini icra etməlidir".

Ülviyyə Zülfiqar əlavə edib ki, indiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların törəmələrinin öz vətənlərinə qayıtmaq hüququ var. QAİ Azərbaycan Respublikasının əhali reyestri xidmətlərinin yardımından istifadə edərək və müvafiq beynəlxalq metodologiya əsasında icma üzvlərinin siyahıyaalınmasını həyata keçirir.

"Gələcəkdə digər dövlətlərdə məskunlaşmış Qərbi azərbaycanlıların siyahıya alınması üçün də səylər göstərəcəyik", - deyə QAİ sözçüsü bildirib.

# Meksikalı parlamentarilər Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Azərbaycanda səfərdə olan Meksika parlamentinin Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Alberto Viyya Viyyeqasın rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 28-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər güllər düzüblər.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Meksika ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əliyeva və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Ukraynalı parlamentarilər Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər

Azərbaycanda səfərdə olan Ukrayna Ali Radasının Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri fevralın 28-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Münasibətlərin inkişafı hər iki dövlətin maraqlarına uyğundur





Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev fevralın 28-də ölkəmizdə səfərdə olan Meksika parlamentinin Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Alberto Viyya Viyyeqasın rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, meksikalı parlamentariləri Azərbaycan parlamentində görməkdən məmnunluğunu bildirən Adil Əliyev onlara Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını və xoş diləklərini çatdırıb. Görüşdə iqtisadi, ticari, parlamentlərarası və digər sahələrdə münasibətlərimizin genişləndirilməsi, ikitərəfli əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini bölüşən vitse-spiker beynəlxalq parlament təşkilatlarında hər iki ölkənin bir-birinin mövqeyini dəstəkləməsinin əhəmiyyətini qeyd edib. O, əminliklə bildirib ki, ölkələrimiz arasındakı qarşılıqlı münasibətlər bundan sonra da həm ikitərəfli formatda, həm də beynəlxalq müstəvidə uğurla davam edəcək.

Görüşdə Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının acı nəticələrinə toxunan Adil Əliyev işğal zamanı erməni tərəfinin həyata keçirdiyi etnik təmizləmə siyasətinin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımının Meksika Senatı tərəfindən tanınmasını minnətdarlıqla xatırlayıb və ədalətli mövqeyə görə Meksika xalqına təşəkkür edib.

44 günlük Vətən müharibəsindən söz açan vitse-spiker Azərbaycanın BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı qəbul edilmiş 4 məlum qətnaməsinin icrasını öz gücünə təmin edərək torpaqlarını Ermənistanın işğalından azad etməsindən bu ölkənin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata qol çəkməsindən danışıb. O, qonaqlara Ermənistanın üzərinə götürdüyü öhdəlikləri tam icra etməməsi, Azərbaycan ərazilərində ekoloji terror həyata keçirməsi, bu səbəbdən də ictimaiyyət nümayəndələrinin hazırda Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirməsi barədə məlumat verib.

Vitse-spiker Azərbaycanın regionda davamlı sülhün və əməkdaşlığın bərqərar olması istiqamətində ardıcıl addımlar atdığını, lakin Ermənistanın destruktiv mövqe nümayiş etdirdiyini deyib. O, beynəlxalq ictimaiyyətin Ermənistana bu istiqamətdə təsir göstərməsinin vacibliyini vurğulayıb.

Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Alberto Viyya Viyyeqas səmimi görüşə görə təşəkkür edərək ölkələrimiz arasında münasibətlərin inkişafının hər iki dövlətin maraqlarına uyğun olduğunu bildirib. O, Meksikanın hər zaman Azərbaycanın yanında olmasını qeyd edərək Azərbaycanın sülh müqaviləsi danışıqları ilə bağlı atdığı addımların beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin vacibliyini bildirib.

Sonra çıxış edən Meksika nümayəndə heyətinin üzvləri Xavyer Kasike Zarate, Elva Aqustina Vigil Ernandez və Navor Alberto Rohas Mansera ölkələrimizin qarşılıqlı əməkdaşlıq imkanlarından danışıblar, əlaqələrin genişləndirilməsində qarşılıqlı səfərlərin, görüşlərin və təcrübə mübadiləsinin vacibliyini vurğulayıblar.

Görüşdə Milli Məclisin Meksika ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əliyeva, hər iki ölkənin səfirləri Məmməd Talıbov, Mariya Viktoriya Romero Kabalyero və digər rəsmi şəxslər iştirak ediblər.

* * *

Fevralın 28-də Milli Məclisin və Meksika Deputatlar Palatasının parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əliyeva Azərbaycan və Meksika arasında dostluq və əməkdaşlığın möhkəm təməllər üzərində qurulduğunu vurğulayaraq bu münasibətlərin ildən-ilə daha da inkişaf etdiyini qeyd edib. O, parlament diplomatiyasının ölkələr arasındakı əlaqələrə töhfəsindən danışaraq parlamentlərarası münasibətlərin genişləndirilməsinin, dostluq qrupları arasında daha sıx əlaqələrin qurulmasının vacibliyini vurğulayıb.

Jalə Əliyeva bu səfərin bəşəriyyətin qarşılaşdığı ən böyük faciələrdən olan Xocalı qətliamının 31-ci ildönümünə təsadüf etdiyini söyləyib. O, Meksika parlamentinin 2011-ci ildə Ermənistan-Azərbaycan münaqişəsi və Xocalı faciəsi ilə bağlı obyektiv gerçəkliyi əks etdirən sənədlər qəbul etdiyini xatırladıb. Azərbaycanın ən ağrılı probleminə ədalətli münasibət bəsləyən dost Meksikanın Vətən müharibəsi günlərində haqqa və ədalətə sadiq qalaraq ölkəmizin yanında olduğunu, beynəlxalq hüququ dəstəklədiyini minnətdarlıqla vurğulayıb.

Jalə Əliyeva Azərbaycanın 44 günlük Vətən müharibəsində zəfərindən bəhs edərək bildirib ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz əzəli torpaqlarını Ermənistanın işğalından azad edib, ərazi bütövlüyünü bərpa edib.

Meksika parlamentinin Deputatlar Palatasının Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Alberto Viyya Viyyeqas çıxış edərək ölkəmizə səfərindən məmnunluğunu bildirib.

Meksika parlamentində bir sıra digər ölkələrlə dostluq qruplarında həm üzv, həm rəhbər kimi çalışdığını söyləyən Alberto Viyya Viyyeqas Azərbaycanla əlaqələrin tamamilə fərqli, diplomatiyadan əlavə, dərin dostluq münasibətlərinə əsaslandığını vurğulayıb. O deyib ki, dostluq qrupları iki xalqın dostluğu əsasında gələcəkdə daha yaxşı işlər görə, çağırışlara cavab verə bilər. Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri həmçinin bildirib ki, ökələrimiz arasında müxtəlifliklərin olmasına baxmayaraq, bir çox sahədə eyni dəyərləri bölüşürük.

Görüşdə Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Tural Gəncəliyev və İltizam Yusifov çıxış edərək ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər.

Sonra meksikalı parlamentarilər Xavyer Kasike Zarate, Elva Aqustina Vigil Ernandez, Navor Alberto Rohas Mansera çıxış ediblər.

Söhbət zamanı iki ölkə arasında parlamentlərarası, siyasi, iqtisadi, ticarət, mədəni, humanitar, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbov, Meksikanın ölkəmizdəki səfiri Mariya Viktoriya Romero Kabalyero iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan və Ukrayna arasında regional təhlükəsizlik məsələləri müzakirə olunub



Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli fevralın 28-də Ukrayna Ali Radasının Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Vladimir Kreydenkonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Fəzail İbrahimli Azərbaycan və Ukrayna xalqlarının müstəqillik tarixlərində paralellərə diqqət çəkib. O, ölkələrimiz arasında beynəlxalq hüququn prinsiplərinə, o cümlədən suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan münasibətlərin inkişafında siyasi dialoqun mühüm rol oynadığını vurğulayıb.

Azərbaycanın Qarabağ uğrunda Vətən müharibəsində qazandığı şanlı zəfərinin əhəmiyyətindən söz açan Milli Məclis Sədrinin müavini ölkəmizin haqlı mövqeyinin, ərazi bütövlüyünün Ukrayna dövləti və xalqı tərəfindən hər zaman dəstəklənməsini yüksək dəyərləndirib.

Ukrayna Ali Radasının Azərbaycanla dostluq qrupunun həmsədri Vladimir Kreydenko səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Ukraynaya göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə və xalqına minnətdarlığını ifadə edib. O, Azərbaycanın ərazi bütövlüyünün Ukrayna tərəfindən prinsipial olaraq hər zaman dəstəkləndiyini vurğulayıb. Ölkələrimiz arasında dostluq əlaqələrindən danışan V.Kreydenko müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın inkişafından məmnunluğunu qeyd edib.

Sonra Ukrayna Ali Radasının Azərbaycanla dostluq qrupunun üzvləri Anton Şvaçko, Nikolay Qaluşko ölkələrimiz arasındakı münasibətlərə dair fikirlərini bölüşüblər.

Söhbətdə Azərbaycan və Ukrayna arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Görüşdə Milli Məclisin Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev, qrupun üzvü Naqif Həmzəyev, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov, Ukraynanın Azərbaycandakı səfirinin siyasi məsələlər üzrə 1-ci katibi Yevqen Osadçi və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# "Qeyri-maddi mədəni irs haqqında" qanun layihəsi ilə bağlı dinləmə keçirilib

Fevralın 28-də Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyinin iştirakı ilə "Qeyri-maddi mədəni irs haqqında" qanun layihəsi ilə bağlı birgə ictimai dinləmə keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan xalqının zəngin mədəni irsə malik olduğunu, qeyri-maddi və maddi mədəni irs nümunələrinin qorunması və təbliğinin dövlətin mədəniyyət siyasətində xüsusi yer tutduğunu deyib. Prezident İlham Əliyevin mədəniyyət sahəsinə xüsusi diqqət və qayğı ilə yanaşdığını vurğulayan komitə sədri dövlətimizin başçısının rəhbərliyi ilə mədəniyyət sahəsində əsaslı islahatların aparıldığını, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı istiqamətində müvafiq işlərin görüldüyünü bildirib.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan 2003-cü ildə UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasına qoşulub. Ötən müddət ərzində maddi və qeyri-maddi mədəni irs nümunələrinin qorunmasında müstəsna xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri nominasiyaları UNESCO-nun müvafiq siyahılarına daxil edilib və mədəni irsimiz bəşəriyyətin mirası olaraq qorunur. O, Heydər Əliyev Fondunun və fondun prezidenti Mehriban Əliyevanın bu istiqamətdə təqdirəlayiq fəaliyyətindən bəhs edib.

Qənirə Paşayeva bugünkü ictimai dinləməni dövlət başçısının bu sahəyə həssas yanaşmasının parlament müstəvisində dəstəyinin göstəricisi kimi dəyərləndirib. O, Milli Məclisin Sədri Sahibə Qafarovaya tədbirin yüksək səviyyədə keçirilməsinə göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib.

Komitə sədri bildirib ki, Azərbaycan xalqının qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması problemi milli təhlükəsizlik konsepsiyasının əsas hədəflərindən biri hesab olunur. Bildirib ki, ölkənin milli qanunvericilik sisteminə daxil olan "Folklor nümunələrinin hüquqi qorunması haqqında" qanun milli səviyyədə qeyri-maddi mədəni irsin qorunmasına hüquqi təminatlar yaradıb. Lakin son illər UNESCO-nun qeyri-maddi mədəni irsin qorunması ilə bağlı apardığı ardıcıl müzakirələr, qəbul etdiyi sənədlər bu sahədə milli qanunvericiliyin təkmilləşdirilməsini zəruri edir.

Sonra Qənirə Paşayeva müzakirəyə çıxarılan "Qeyri-maddi mədəni irs haqqında" qanun layihəsinin əhəmiyyətindən danışıb. O diqqətə çatdırıb ki, yeni qanun layihəsinin əsas məqsədi ölkə ərazisində qeyri-maddi mədəni irs nümunələrinin yaradılması, aşkar edilməsi, toplanması, tədqiqi, təbliği, istifadəsi və qorunması sahəsində yaranan münasibətləri tənzimləməkdir. Bildirilib ki, təqdim edilən ilkin layihə 4 fəsil, 14 maddədən ibarətdir. Sənəddə bir sıra spesifik anlayışların izahı verilir, qeyri-maddi mədəni irs nümunələrinin əhatə etdiyi kateqoriyalar, qanunun tətbiq dairəsi və qeyri-maddi mədəni irs sahəsində mövcud olan qanunvericilik ehtiva olunur. Layihədə habelə qeyri-maddi mədəni irs sahəsində dövlət tənzimlənməsinin məqsədləri, əsas istiqamətləri, dövlətin vəzifələri, qeyri-maddi mədəni irsin tənzimlənmə mexanizmləri müəyyən edilir.



Sənəddə bununla yanaşı, Qeyri-maddi Mədəni İrs Nümunələrinin Dövlət Reyestrinin yaradılması və həmin reyestrin elektron formada aparılmasına dair məsələlər, qeyri-maddi mədəni irs nümunələrindən istifadə qaydaları, həmçinin UNESCO-nun Qeyri-maddi Mədəni irs üzrə Reprezentativ Siyahısına və Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-maddi Mədəni İrs üzrə Siyahısına daxil edilmiş Azərbaycan xalqına məxsus qeyri-maddi mədəni irs nümunələrinin adlarından istifadə qaydaları, qeyri-maddi mədəni irs nümunələrinin qorunmasının maliyyələşdirilməsi, beynəlxalq əməkdaşlıqla bağlı maddələr öz əksini tapıb.

İclasda çıxış edən mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli bildirib ki, təqdim edilən qanun layihəsi dövlət mədəniyyət siyasətinin prioritet istiqamətlərini əhatə edir. O, mədəni irsin qorunması, mühafizəsi, bununla bağlı hüquqi mexanizmlərin formalaşdırılmasının zəruriliyi, mədəniyyət sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və formalaşdırılmasının vacibliyindən bəhs edib. Mədəniyyət sahəsində mövcud vəziyyət, o cümlədən qanunvericilik bazası, infrastruktur, kadr potensialı və digər məsələlər barədə danışıb. O, ölkə Prezidentinin mədəniyyət sahəsinə daim diqqət və qayğı ilə yanaşdığını vurğulayıb. Bu sahənin inkişafı üçün qəbul edilən sənədlər, həyata keçirilən layihələrlə bağlı fikirlərini açıqlayıb.

Adil Kərimli Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycan mədəniyyəti 2020-2040 dövlət strategiyası" ilə bağlı tədbirlər planının tərtib edildiyini bildirib. Bu sahədə sistemli, məqsədyönlü fəaliyyətin həyata keçirildiyini, bununla bağlı prioritetlərin hazırlandığını söyləyib. O, habelə işğaldan azad edilmiş ərazilərdə mədəni və tarixi abidələrimizin bərpası barədə danışaraq abidələrimizin qorunması və mühafizəsinin mühüm əhəmiyyət kəsb edən məsələlərdən olduğunu deyib.

Nazir müavini təqdim edilən qanun layihəsinin vacibliyini qeyd edərək qeyri-maddi mədəni irsin qorunmasının mədəniyyətimizin prioritet istiqamətlərindən hesab edildiyini, bu sahənin qanunvericiliklə tənzimlənməsinin önəmli olduğunu bildirib. O, bu sənədin milli mədəni irsimizin qorunmasına xidmət edəcəyini söyləyib.

Sonra tədbirdə Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov çıxış edib. O, müəllifi olduğu "Qeyri-maddi mədəni irs (QMMİ) anlayışı və onun istifadəsi" adlı kitabını təqdim edərək qeyri-maddi mədəni irs nümunələrinin, ənənəvi mədəni nümunələrin və ənənəvi biliklərin qorunub saxlanılmasının əhəmiyyətindən bəhs edib.

Mövzu ətrafında müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa, üzvləri Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Razi Nurullayev, Əziz Ələkbərov, Novruzəli Aslanov, Cavanşir Feyziyev, Ülviyyə Həmzəyeva, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, AMEA-nın Folklor İnstitutunun Baş direktoru Muxtar İmanov, "Dünya Musiqi Xəzinəsinin İncisi-Muğam" İctimai Birliyinin sədri Nuriyyə Hüseynova, "Mədəni İnkişaf və Dialoq" İctimai Birliyinin təsisçisi Rəna Mirzəzadə çıxış ediblər.

Çıxışlarda təqdim olunan qanun layihəsinin əhəmiyyəti və aktuallığı, milli mədəni irsin qorunmasının vacibliyi qeyd olunub, bir sıra təkliflər verilib. Habelə mədəniyyət sahəsində mövcud vəziyyət və bu sahənin inkişafı istiqamətində görülməsi tədbirlər barədə fikir mübadiləsi aparılıb.

Mədəniyyət nazirinin birinci müavini Adil Kərimli və Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov səsləndirilən fikirlərə münasibət bildiriblər, qaldırılan bəzi məsələlərə aydınlıq gətiriblər.

Dinləməyə yekun vuran komitə sədri Qənirə Paşayeva müzakirələrin səmərəli keçdiyini, faydalı fikirlərin səsləndirildiyini söyləyib.

Tədbirdə parlamentin Mədəniyyət komitəsinin üzvləri Ülviyyə Ağayeva, Mixail Zabelin, aidiyyəti qurumların nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında görüş olub

Fevralın 28-də Azərbaycan Milli Məclisinin və Ukrayna Ali Radasının parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev Ukrayna parlament nümayəndə heyətini Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu ifadə edib. O, iki ölkə arasındakı dostluq münasibətləri, Azərbaycan və Ukrayna xalqlarını birləşdirən dəyərlər, parlament diplomatiyasının yaratdığı imkanlar, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq, parlamentlərarası münasibətlərin genişləndirilməsində dostluq qruplarının rolu, qarşılıqlı səfərlərin əhəmiyyəti, regional təhlükəsizlik və digər məsələlər barədə fikirlərini bölüşüb.

Ukrayna Ali Radasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Vladimir Kreydenko isə öz növbəsində ölkəmizə səfərindən məmnunluğunu bildirib. O, iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinin perspektivləri barədə danışıb, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar və mənəvi dəstəyə görə təşəkkürünü ifadə edib.

*"Azərbaycan"*



# Azərbaycanın sülh çağırışı regionda təhlükəsizliyin yeganə təminatıdır

## Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar respublikamızın mövqelərini daha da möhkəmləndirib

*Əvvəli 1-ci səh.*

Bütün bunlara rəğmən proseslərin indiki mərhələsində, yəni həm istər münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrdə, həm də Qarabağda yaşayan ermənilərlə bağlı məsələdə Azərbaycan özünün qətiyyətli mövqeyini nümayiş etdirir. Məsələn, Fransa qərəzli və birtərəfli ermənipərəst mövqe tutduğundan Azərbaycan tərəfindən müzakirələrdən kənarlaşdırılıb.

Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərlə bağlı məsələ isə Azərbaycanın daxili işidir. Bu mövzunu Bakı heç bir tərəflə, o cümlədən Ermənistanla müzakirə etmir. Bu çərçivədə Azərbaycan Qarabağ mövzusunu da artıq beynəlxalq müzakirələrdən çıxarır və bu, hər hansı bir formada respublikamızla Ermənistan arasında imzalanacaq sazişə daxil edilməyəcək. Prezident İlham Əliyev fevralın 18-də Münhendə "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasdan sonra Azərbaycan televiziya kanallarına müsahibəsində bu barədə deyib: "Azərbaycanın mövqeyinə gəldikdə, bizim mövqeyimiz birmənalıdır, açıqdır. Mən bunu qapalı görüşlərdə də ifadə edirəm, rəsmi açıqlamalarımda da. Bu gün dövlət katibi Blinkenin təşəbbüsü ilə keçirilmiş tədbirdə də ifadə etmişəm, biz haqqın, ədalətin tərəfdarıyıq. Daxili işlərimizə kənar qüvvələrin qarışmasına heç vaxt imkan verməmişik və imkan verməyəcəyik. Qarabağ Azərbaycandır! Bunu mən müharibədən əvvəl demişəm. Bu gün bunu təkcə mən yox, bütün dünya nəinki deyir və görür".

Bir neçə gün əvvəl Qarabağa göndərilmiş Vardanyanla bağlı məsələ də göstərdi ki, Azərbaycan öz mövqeyini qətiyyətlə təmin edir. Bütövlükdə görünən odur ki, Azərbaycan Vətən müharibəsindən sonra yaranmış yeni reallıqların hər bir mərhələsində öz mövqelərini daha da möhkəmləndirib.

### Ermənistanın yalanları beynəlxalq məhkəmələrdə ifşa olunur

Ermənistan həm işğal, həm də müharibə günlərində çoxsaylı hərbi və insanlıq əleyhinə cinayətlərə imza atmışdır. Bu mənada qarşıda duran vəzifələrdən biri Ermənistanı beynəlxalq məhkəmələrdə ifşa etməkdir. Hazırda beynəlxalq məhkəmələrdə Ermənistanın hərbi cinayətlərinə lazımi hüquqi qiymətin verilməsi üçün Azərbaycan dövləti tərəfindən lazımi iş aparılır.

Erməni yalanları artıq bu məhkəmələrdə sübuta yetirilir. Məsələn, irqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işləri üzrə Beynəlxalq Ədalət Məhkəməsinin son qərarına əsasən, Laçın yolu ilə bağlı Ermənistanın vəsatəti və aksiyanın Azərbaycan hökuməti tərəfindən təşkil olunması ilə bağlı fərziyyə ləğv edilib. Ermənistanın iddiası ondan ibarət idi ki, bu aksiya saxtadır və iştirakçılar guya Azərbaycan hökuməti tərəfindən öyrədilmiş şəxslərdir. Bununla bağlı Ermənistan məhkəməyə müraciət edərək aksiyanın süni şəkildə təşkil olunmasının təsdiqini tapmaq istəyirdi. Lakin Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın iddiasını rədd edib. O cümlədən məhkəmə prosesində Ermənistanda 2021-ci ildə istehsal edilmiş minaların işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanması haqqında bizim tərəfdən ortaya qoyulan faktların heç birini bu ölkə məhkəmə prosesi zamanı təkzib edə bilməyib.

Fevralın 27-də isə Azərbaycan Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq, Ermənistana qarşı dövlətlərarası arbitraj prosesini başladıb. Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş arbitraj bildirişində 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə bu ölkədən təzminat və maliyyə kompensasiyası tələb edib. Bu arbitraj işinin məqsədi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisində Ermənistan tərəfindən enerji ehtiyatlarının 30 ilə yaxın bir dövr ərzində qeyri-qanuni istismarı və qəsb edilməsinə cavab olaraq haqqı-ədaləti və Ermənistanın təzminat ödəməsini təmin etməkdir.

Göründüyü kimi, Azərbaycan bir sıra beynəlxalq platformalarda, məhkəmələrdə Ermənistana qarşı dövlətlərarası iddialar qaldırıb. Son məhkəmə qərarları göstərir ki, dövlətimiz bu istiqamətdə qarşıya qoyulan məqsədlərinə tədricən nail olur. Azərbaycan Ermənistanı öhdəliklərinə əməl etməyə, yeni reallıqların şərt və tələblərini yerinə yetirməyə məcbur etməklə yanaşı, onun beynəlxalq məhkəmələrdə də tam ifşasına nail olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Rusiya "çempion" olacaqmı?

Fevralın 27-də Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edib. Nazir səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşüb. Azərbaycan-Rusiya münasibətlərindən söz açan dövlət başçısı bildirib ki, əməkdaşlıq tam dəyərli şəkildə inkişaf edir, çox mühüm məsələlər həll olunur: "Düşünürəm ki, biz bu ilə yaxşı təməl ilə qədəm qoyuruq. İlin əvvəlində bizə səfər etməyiniz də bu il qarşılıqlı fəaliyyətimizə xüsusi dinamika verəcək. Ənənəvi qarşılıqlı fəaliyyət sahələrində - siyasi dialoq, energetika, nəqliyyat, ticarət, humanitar əməkdaşlıq və müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatdırmalı olduğumuz sahələrdə də ciddi qarşılıqlı addımlara ümid bəsləyirik".





Görüşdə regional təhlükəsizliklə bağlı məsələlər də müzakirə olunub. 2023-cü ilin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında irəliləyiş ili olacağına ümid etdiyini deyən ölkəmizin rəhbəri bu prosesdə fəal iştiraka görə Rusiya hökumətinə təşəkkür edib.

### Bu səfər Azərbaycan-Rusiya münasibətlərini daha da dərinləşdirməyə imkan verir

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Rusiya tarixən qonşu ölkələr olub. Qonşu ölkələr isə həmişə yaxşı münasibətdə olmalı, əməkdaşlıq, qarşılıqlı maraq doğuran məsələləri tapmalıdır. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri Azərbaycan və Rusiya arasında kompleks məsələlərin müzakirəsinə imkan verir. Rusiyanın Azərbaycan üçün qonşu dövlət, müttəfiq və bir sıra məsələlərdə ümumi baxışları olan ölkə olduğunu qeyd edən deputat deyib: "Azərbaycan Rusiya ilə yaxşı münasibətləri saxlamaqda maraqlıdır. Lavrovun səfəri, eyni zamanda Azərbaycan üçün aktual olan Ermənistanla münasibətlərin normallaşması məsələsinin də müzakirəsini nəzərdə tuturdu. Ona görə ki, Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri kimi regiona qonşu olan yeganə ölkədir. Rusiyanın həm Azərbaycan, həm də Ermənistanla yaxşı münasibəti var. Bu baxımdan rəsmi Moskva Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına öz töhfəsini verə bilər".

A.Mirzəzadə qeyd edib ki, bu münasibətlərin normallaşmasına nə qədər çox ölkə dəstəyini verərsə, məsələ o qədər də tez həll edilə bilər. O vurğulayıb ki, Lavrov Rusiya siyasətində ciddi, nüfuzlu bir fiqurdur. Rusiyanın həm xarici, həm də daxili siyasətinin formalaşmasında, mövqeyinin dəqiqləşməsində onun təsiri çox böyükdür.

Deputat hesab edir ki, Sergey Lavrovun səfəri Azərbaycan-Rusiya münasibətlərini daha da dərinləşdirməyə, həmçinin stabilliyin, sülhün təmin edilməsi üçün hansı addımların atılmasının lazım olduğu ilə bağlı müzakirələr aparılmasına imkan verdi.

### Rusiya mövqeyini konkretləşdirməlidir

Milli Məclisin deputatı Sahib Alıyevin fikrincə, Sergey Lavrovun Bakıya səfəri barədə danışarkən bizim Rusiyaya yanaşmamız deyil, vasitəçi olaraq Rusiyanın bizə yanaşması, regionda yeritdiyi siyasət əsas götürülməlidir.

Deputat xatırladıb ki, Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda Azərbaycanla Ermənistan arasında normallaşma prosesində kimləri vasitəçi görməyimizlə və onlardan hansına üstünlük verib-verməməyimizlə bağlı qətiyyətli və təsbitlənmiş bir mövqe ortaya qoyub. Vasitəçi olaraq biz ABŞ, Avropa İttifaqı və Rusiyanı görürük.

S.Alıyev deyib ki, Ermənistanın mövqeyi isə fərqlidir. O, vasitəçilər arasında Fransanı da görmək istədiyini gizlətmir. Hətta haylar "böyük bacı"nın təkbaşına vasitəçiliyinin nə qədər absurd görünəcəyini dərk etdiklərindən Fransa Prezidentinin heç olmasa Avropa İttifaqının xətti ilə keçirilən danışıqlarda yer almasına çalışırlar.

Deputat qeyd edib ki, Ermənistandan fərqli olaraq Azərbaycan Fransanı vasitəçi gözündə görmədiyi kimi, vasitəçilərdən hər hansı birinə də üstünlük vermir: "Bizim üçün önəmli olan kimin vasitəçiliyi ilə olursa-olsun, tezliklə Azərbaycanla Ermənistan arasında beynəlxalq normalara dayanan sülh anlaşmasının bağlanmasıdır. Dövlət başçımız bununla bağlı Münhendə dediyi kimi, "iki ölkənin razılığa gəlməsinə kim kömək edərsə, çempion medalını o qazanacaqdır"".

Deputat vurğulayıb ki, Rusiya Xarici İşlər Nazirliyinin təmsilçilərinin Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşmasına yönəlik fikirlərində kommunikasiyaların açılması, delimitasiya, humanitar xarakterli addımlar və ünsiyyətlərdən sonra sülh anlaşmasından bəhs edilir. Bu, təkcə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın açıqlamalarında deyil, həmçinin xarici işlər nazirinin müavini Mixail Qaluzinin açıqlamalarında da yer alıb. Qaluzinin fevralın 23-də TASS agentliyinə verdiyi müsahibəyə diqqətçəkən deputat bildirib ki, onun dediyi kimi, sülhə aparan yolda əngəllər çoxdur, amma bu əngəli yaradanlar ilk növbədə guya sülh üçün çalışdıqlarını deyənlərdir. "Münhendə cənab İlham Əliyev İkinci Qarabağ savaşından sonra Ermənistanda keçirilən seçkilərdə Paşinyanın qələbə çalmasını seçicilərin sülh istəkləri, sülh mandatı kimi qiymətləndirərkən də nəzərə çatdırdı ki, iki ölkə arasında normallaşma prosesinin ləngiməsi heç də oradakıların dirənişindən qaynaqlanmır. Bu, başqa dövlətlərin Paşinyana diktəsindən irəli gəlir", - deyə S.Alıyev əlavə edib.

O qeyd edib ki, Sergey Lavrovun Bakıya səfərində məqsəd ölkəsini Prezident İlham Əliyevin dediyi kimi, çempion etməkdirsə, bizim üçün fərqi yoxdur. Təki onlar sülhə maneçilik törədən "əngəllər"i aradan qaldırmaq əzmində olduqlarını göstərsinlər. Bu yöndə ilk addımlardan biri Vardanyanın çox tezliklə Xankəndidən yenə də gizli yolla, amma birdəfəlik çıxarılması olardı. Lavrov yəqin ki, Azərbaycan Prezidentinin o dələduz haqqındakı son açıqlamasıyla tanışdı. Dövlət başçımızın ABŞ-nin da anlayışla qarşıladığı hiss olunan tələbindən sonra Vardanyan "vəzifədən" çıxarılsa da, hələ də Xankəndidədir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Yurda dönüş bayramı

## Daha bir qrup ağalılı Od çərşənbəsində doğma ocağına qovuşdu

Ağalı...
Şərqi Zəngəzurun ilk cənnətməkana çevrilən yurdu...
Cənubi Qafqazın, Azərbaycanın, Zəngilanın ilk "ağıllı kənd"i...
O kənd ki bir qərinəlik vətən qubarımızın dindirildiyi, dədə-baba yurdlarımıza qayıdışın zəfər ünvanı oldu...

O kənd ki illər əvvəl düşmən sakinlərini zorla qoynundan didərgin salmış, bu yerdə daşı daş üstündə qoymamış, sularını qurutmuş, torpağını yandıraraq viranəyə çevirmiş, bütün işğal etdiyi yurdlarımızda olduğu kimi, burada da bir həyat nişanəsi qoymamışdı. Erməni vandalları bu vəhşi hərəkətləri ilə tarixi torpaqlarından zorla didərgin saldıqları azərbaycanlıların gözlərini qorxudacaqlarını, bununla da onların öz dədə-baba yurdlarına qayıdışlarını əngəlləyəcəklərini planlaşdırmışdılar, amma bədxah niyyətləri gözlərində qaldı...

Artıq Zəngilanın Ağalı kəndinin timsalında Qarabağa və Şərqi Zəngəzura əbədi qayıdışın uğurlu başlanğıcı qoyulub.

Ağalıya yeni həyat qaytarılıb, bu gün Ağalıda həyatın nişanəsi olan körpələr dünyaya gəlir...







### Yeni çağırışlar, bol uğurlar

Bəli, Vətən müharibəsindəki parlaq zəfərdən sonra Azərbaycan tamamilə yeni, çağırışlarla dolu və uğurlu bir dövrə qədəm qoyub. Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı milli prioritet elan edərək o yerlərdə nəhəng bərpa və quruculuq işlərinə başlayan dövlətimiz Zəngilanın Ağalı kəndini çox qısa zamanda qurub bərpa edərək, zəfərdən sonra qayıdışın ilk ünvanına çevirib.

Vaxtilə Ağalıdan zorla didərgin salınan insanlar 2022-ci il iyulun 19-da öz yurdlarına qovuşaraq, "ağıllı kənd"lərində yeni həyata başlayıblar. Həmin tarixdən etibarən Ağalı kəndinə əhalinin mərhələli şəkildə köçürülməsinə başlanılıb.

Ötən il sentyabrın 7-də və 10-da isə daha 25 ailə Ağalı kəndinə köçürülüb. 30 illik yurd həsrəti bitən ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi yaşamağa başlayıblar.

"Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub və küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Ağalıda Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Eləcə də burada ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib.

### Ağalıya qayıdışın növbəti mərhələsi

İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə Böyük qayıdışın növbəti mərhələsinə də start verilib. Bu mərhələdə növbəti 20 ailə, 94 nəfər Zəngilanın Ağalı kəndinə köçürülür.

Onlardan 50 nəfərdən ibarət 10 ailə artıq ötən gün Ağalıda məskunlaşdı, 44 nəfərdən ibarət 10 ailə isə mart ayının 3-də köçürüləcək.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov məlumat verib ki, bu günədək Böyük qayıdış layihəsi çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə ümumilikdə 86 ailə, 420 nəfər köçürülüb. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi əsasən daha ağır şəraitdə yaşayanlardır. Köç prosesinin növbəti aylarda da davam etdirilməsi planlaşdırılır.

### Ağalıdan körpə səsi gəlir

Artıq Ağalıda həyat öz axarına düşüb, insanlar doğma kəndlərində xoşbəxt həyata başlayıblar, xoş günlərini də, bayramlarını da birgə qeyd edirlər. Daha ağalılılar əziz qonaqlarını sığındıqları məcburi köçkün evlərində yox, öz doğma ocaqlarında sevinclə qarşılayırlar. İndi ağalılı şagirdlər elmin sirlərinə öz kəndlərindəki məktəbə yollanaraq vaqif olurlar...

Ən əsası isə bu gün Ağalıdan top-tüfəng səsi deyil, yeni doğulan körpə səsi gəlir...

Dostları sevindirən, düşmənin bağrına ox kimi sancılan körpə səsi...

Ağalının timsalında Qarabağa və Şərqi Zəngəzura həyatın qayıdışını dünyaya hayqıran körpə səsi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakıda Azərbaycan və Rusiya XİN başçıları arasında təkbətək və genişlərkibli görüş olub










Fevralın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə rəsmi səfəri çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ceyhun Bayramov və Sergey Lavrov arasında keçirilən təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Genişərkibli görüşdə Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, həmçinin regionda mövcud vəziyyət müzakirə olunub.

Azərbaycan və Rusiya arasında müxtəlif sahələr, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, tranzit, mədəni, humanitar, təhsil və sair sahələr üzrə səmərəli əməkdaşlıq gündəliyinin mövcudluğundan bəhs edən nazir Ceyhun Bayramov bu xüsusda münasibətlərin inkişafında iki ölkə arasındakı siyasi dialoqun, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

Postmünaqişə dövründə regionda mövcud vəziyyət, bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində imzalanmış üçtərəfli bəyanatların icrası yönündə Azərbaycanın göstərdiyi sülh və quruculuq səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov iki dövlət arasında münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanmasında Azərbaycanın davamlı olaraq Ermənistanın qeyri-konstruktiv mövqeyi, o cümlədən sülh gündəliyinə xələl gətirən təxribatları ilə üzləşdiyini bildirib.

Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının pozulmasının daha bir nümunəsi olaraq yalnız humanitar məqsədlər üçün istifadəsinin nəzərdə tutulduğu Laçın yolundan sui-istifadə hallarının Azərbaycanın vətəndaş cəmiyyətinin haqlı etirazına səbəb olduğu bir daha diqqətə çatdırılıb. Ermənistan tərəfinin davamlı təxribatlarına baxmayaraq, Azərbaycanın sözügedən etiraz aksiyasının neqativ humanitar nəticələrinin olmaması, o cümlədən sülh gündəliyinin irəli aparılması üçün əlindən gələni əsirgəməyəcəyi bildirilib.

Nazir Sergey Lavrov builki rəsmi səfərinin ötən il fevralın 22-də imzalanmış və ölkələrimiz arasında münasibətlərin inkişafında əlamətdar rolu olan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının birinci ildönümünə təsadüf etdiyini xatırladıb. Bu xüsusda iki ölkə arasında müxtəlif sahələrdə mövcud münasibətlərin inkişafındakı müqavilə-hüquq bazasının əhəmiyyəti qeyd olunub. Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması istiqamətində 10 noyabr Bəyanatının və liderlər arasında əldə edilmiş razılıqlardan irəli gələn öhdəliklərin yerinə yetirilməsinin vacibliyi vurğulanıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

# Bakıda Rusiya-Azərbaycan Ekspert Şurasının üçüncü iclası keçirilib

Fevralın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) "XXI əsrdə Rusiya-Azərbaycan münasibətləri: regional təhlükəsizlik kontekstində strateji tərəfdaşlıq" mövzusuna həsr olunmuş konfrans formatında iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, sayca üçüncü olan iclas Azərbaycan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Rusiya Beynəlxalq Məsələlər Şurası (RBMŞ) tərəfindən təşkil edilib.

Tədbirdə çıxış edən nazir Ceyhun Bayramov Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) qısa müddət ərzində iki ölkənin ekspertləri arasında davamlı əməkdaşlıq platformasına çevrildiyini vurğulayıb. Bu xüsusda ekspertlər arasında daimi fikir mübadiləsi və dialoqun mövcudluğunun diplomatiya sahəsi üzrə ixtisaslaşanlar üçün faydalı olacağı diqqətə çatdırılıb.

Nazir Azərbaycan-Rusiya münasibətlərinin mövcud dinamikasından, yüksək səviyyədə dialoqdan, o cümlədən iki ölkənin Xarici İşlər nazirliklərinin birgə əməkdaşlığından söz açaraq ekspert şurasının ekspertlərimiz arasında əməkdaşlığın daha da inkişafı üçün praktiki platforma rolunu oynadığını bildirib.

Tədbirdə ötən il ərzində iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin həm Xarici İşlər nazirlikləri, həm də Rusiya-Azərbaycan Ekspert Şurasının (RAEŞ) çərçivəsində geniş şəkildə qeyd olunduğu məmnunluqla xatırlanıb. Bu xüsusda ötən dövr ərzində iki dövlət arasında münasibətlərin strateji tərəfdaşlığa çevrildiyi, bunun uzun illər ardıcıl şəkildə qurulan ikitərəfli əməkdaşlığın məntiqi nəticəsi olduğu, habelə Azərbaycan və Rusiya prezidentləri arasında yüksəksəviyyəli etimadın möhkəm təməlinə əsaslandığı vurğulanıb.

Tədbirdə Azərbaycanın milli maraqlardan irəli gələn suveren xarici siyasət strategiyası yürütməsindən söz açılaraq belə sabit, proqnozlaşdırıla bilən və ən əsası, suveren siyasətin ölkəmizi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya üçün dəyərli tərəfdaşa çevirdiyi xarici işlər naziri Ceyhun Bayramov tərəfindən vurğulanıb.

İki ölkənin Cənubi Qafqazda sülh gündəliyinin ardıcıl olaraq möhkəmləndirilməsi, revanşizm cəhdlərinin və qeyri-sağlam rəqabətin neytrallaşdırılması ilə bağlı mövqelərinin bir sıra hallarda oxşar olduğu qeyd edilib.

Azərbaycanın 44 günlük müharibədə Qələbəsi, BMT Təhlükəsizlik Şurasının qərarlarının, habelə uzun illər, o cümlədən Rusiya danışıqlar platformasında müzakirə olunan təkliflərin Azərbaycan tərəfindən faktiki icrasının bu məqsədlər üçün yeni imkanlar açdığı bildirilib.

Tədbirdə iki ölkənin dövlət başçısı tərəfindən ötən il Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının birgə səylərə yeni təkan verməsindən əminlik ifadə olunub.

Tədbirdə həmçinin 2020 və 2021-ci illərdə imzalanmış üçtərəfli bəyanatlara sadiqlik ifadə olunaraq, Azərbaycanın və bütün Cənubi Qafqaz regionunun münaqişədən sonrakı inkişafı üçün mühüm təməl olaraq qiymətləndirilib.

Daha sonra çıxış edən Rusiya Federasiyası xarici işlər naziri Sergey Lavrov ölkələrimiz arasında strateji əlaqələrin əhəmiyyətindən bəhs edib.

Konfransda BMTM-in sədri Fərid Şəfiyevin və RBMŞ-nin baş direktoru Andrey Kortunovun RAEŞ-nin fəaliyyəti haqqında məruzələri dinlənilib. İnteraktiv dialoq şəraitində keçən konfransın qapalı sessiyaları çərçivəsində aparılan müzakirələr Rusiya-Azərbaycan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər sahələrini əhatə edib.

Şura üzvləri həmçinin iki ölkə arasında əlaqələrin dərinləşdirilməsinin müxtəlif aspektləri ilə bağlı Şuranın praktiki tövsiyələrini əks etdirən kommünike qəbul edib. RAEŞ tövsiyələrinin ikitərəfli əməkdaşlığın müvafiq platformalarında təqdim edilməsi, birgə tematik topluların nəşri, Şuranın iclaslarının mütəmadi keçirilməsi məqsədəmüvafiq hesab edilib.

Konfrans zamanı xarici işlər nazirlərinə RAEŞ-nin birinci nəşrinin - rusiyalı və azərbaycanlı ekspertlərin müəllifləri olduqları "Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 ili: keçilən yol və gələcəyə baxış" adlı məqalələr toplusunun xatirə nüsxələri təqdim olunub.

# Ceyhun Bayramov Səudiyyə Ərəbistanının xarici işlər nazirinin müavini ilə görüşüb



Fevralın 28-də xarici işlər naziri Ceyhun Bayramov Bakıda keçiriləcək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanının xarici işlər nazirinin müavini Valid bin Abdulkərim Əl-Xureyci ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında tarixi və dini cəhətdən bir çox ortaq cəhətlərin olduğu vurğulanaraq Azərbaycanın bu əlaqələrin inkişafına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyi diqqətə çatdırılıb.

Diplomatik əlaqələrin qurulmasından ötən 30 il müddətdə iki ölkə arasında münasibətlərin müsbət dinamika ilə inkişaf etdiyi qeyd olunaraq, bu gün ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib. Bu xüsusda, ali və yüksəksəviyyəli təmasların, o cümlədən qarşılıqlı səfərlərin əhəmiyyətindən bəhs edilərək belə təmasların münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına zəmin yaratdığı bildirilib.

Söhbət zamanı iki ölkə arasında ikitərəfli tərəfdaşlıqla yanaşı, regional və beynəlxalq formatlarda faydalı əməkdaşlığın mövcudluğunu vurğulayan Ceyhun Bayramov beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini vurğulayıb. Bu xüsusda Səudiyyə Ərəbistanının, xüsusilə də BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyi yüksək qiymətləndirilib.

Nazir iki ölkə arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri kimi enerji, kənd təsərrüfatı, turizm, alternativ enerji sahələrində mövcud əməkdaşlıq imkanlarından bəhs edib, həmin sahələrdə birgə uğurlu layihələrin həyata keçirildiyini, bu işlərin genişləndirilməsi üçün perspektivlərin olduğunu vurğulayıb.

Görüşdə həmçinin Azərbaycanın Ermənistanla sülh prosesi istiqamətində atdığı addımlar və təşəbbüslər, işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri, həyata keçirilən irimiqyaslı layihələr barədə qarşı tərəfə məlumat verilib.

Nazir Ceyhun Bayramov ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyindən bəhs edərək, COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşünün əhəmiyyətini vurğulayıb.

Görüşdə ikitərəfli və regional əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisi arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədov Cenevrədə BMT İnsan Hüquqları Şurasının 52-ci sessiyasında iştirakı çərçivəsində fevralın 28-də BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisinin rəhbəri Rameş Rajasinqham ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Görüşdə Azərbaycan ilə BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisi arasında əməkdaşlığın perspektivləri, o cümlədən bölgədə postmünaqişə dövründə vəziyyət, habelə Laçın yolu ətrafında məsələlər müzakirə olunub.

Humanitar yardımlar sahəsində ölkəmizin aktiv fəaliyyətindən məmnunluqla söz açan nazir müavini bu xüsusda COVID-19 pandemiyası, o cümlədən pandemiyadan sonrakı dövrlərdə Azərbaycanın inkişaf etməkdə olan bir sıra dövlətlərə humanitar yardımlar göndərdiyini bildirib. Həmçinin Azərbaycan tərəfindən göstərilən beynəlxalq humanitar yardımların təmin olunmasında Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnkişafa Yardım Agentliyinin fəaliyyəti qeyd edilib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, o cümlədən Azərbaycanın regionda sülh və quruculuq səyləri barədə ətraflı məlumat verən E.Məmmədov Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda etiraz aksiyası ilə bağlı Ermənistan tərəfindən beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndirən "blokada", "humanitar böhran" iddialarının həqiqəti əks etdirmədiyini diqqətə çatdırıb. Nazir müavini Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkət rejiminin dəyişməz olaraq qaldığını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Sosial sahə üzrə elektronlaşma proqramının əhatə dairəsi daha da genişlənəcək

Ötən il daha 618,3 min vətəndaş DOST xidmətlərindən yararlanıb və həmin xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 98,5 faiz təşkil edib. Ümumilikdə isə ötən dövrdə DOST mərkəzlərində 1,3 milyonadək vətəndaşa xidmət göstərilib.



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd edib ki, Prezident İlham Əliyevin fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 6 DOST mərkəzi açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası Azərbaycanda son illər aparılmış sosial islahatların mühüm innovativ uğurlarından biri olmaqla sosial sahələrə aid 154 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 2022-ci ilin dekabr ayında daha bir DOST mərkəzi açılaraq bu mərkəzlərin sayı 6-ya çatdığı qeyd olunub. Habelə 2022-ci ilin may ayında Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib. Son bir ildə DOST xidmətləri sahəsində bir sıra yeniliklər (onlayn növbə xidməti, səyyar xidmətlərin, mediasiya xidmətinin təşkili, surdo tərcümə və s.) də tətbiq olunub. Eləcə də DOST Agentliyi 8 beynəlxalq mükafatla təltif edilib, 2 layihə üzrə finalçı seçilib, 4 beynəlxalq ISO sertifikatı əldə edib.

Sosial sahədə ötən beş ildə ardıcıl olaraq icra olunan elektronlaşma proqramından bəhs olunub. Keçən il də bu sahədə işlərin davam etdirildiyi, nazirliyin 153 xidmətindən 140-dan və ya 90 faizdən çoxunun elektronlaşdırıldığı, e-sistem üzərindən 51 proaktiv xidmətin fəaliyyət göstərdiyi qeyd edilib. Ötən il nazirliyin informasiya sistemləri "Hökumət buludu"na keçidi tam təmin olunan ilk dövlət qurumu olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-xidmətlərində 2022-ci ildə 9,9 milyon müraciət qeydə alınıb, nazirliyin e-sistemlərinə sorğu və müraciətlərin sayı 209 milyon olub. Ötən il daha 314 min proaktiv təyinat aparılıb. E-sosial portalından keçən il 1 milyon 273 min, ümumilikdə ötən dövrdə 10,9 milyon dəfə istifadə edilib.

Nazirlik "ASAN xidmət indeksi" üzrə yeni qiymətləndirmədə əvvəlki dövrlər üzrə nəticələrini daha da artıraraq 88 faiz nəticə ilə birinci yerdə qərarlaşıb. Beləliklə, 2019-cu ilə aid qiymətləndirmədə 20-ci yerdə olan nazirlik 2020-ci il üzrə 5-ci yeri, 2021-ci il üzrə 2-ci yeri, bu il açıqlanan yeni qiymətləndirmədə isə ilk yeri tutub.

E-sosial.az portalı və "Əmək və Məşğulluq" altsistemi isə BMT-nin İKT üzrə ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının İsveçrənin Cenevrə şəhərində keçiriləcək "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2023" çərçivəsində təşkil olunan, müxtəlif ölkələrdən 18 kateqoriya üzrə 900 layihənin iştirak etdiyi müsabiqənin "Çempion layihələri" seçilib. Sosial sahə üzrə elektronlaşma proqramının əhatə dairəsinin daha da genişlənəcəyi, bu istiqamətdə işlərin davam etdirildiyi diqqətə çatdırılıb.

Ötən il 57,5 min şəxsə əlillik təyinatı aparıldığı, əvvəlki ilə nisbətən 5,4 dəfə çox olmaqla 50,4 min şəxsə reabilitasiya xidməti göstərildiyi bildirilib. Həmçinin keçən il əlilliyi olan şəxslərə 66,3 min reabilitasiya vasitəsi verildiyi, bunun əvvəlki ilə nisbətən 40 faizədək çox olduğu qeyd olunub.

Yeni sosial obyektlərin yaradılması, əlillik və reabilitasiya, xidmətlərin elektronlaşmasının əhatə dairəsinin, eləcə də reabilitasiya vasitələrinin siyahısının genişləndirilməsi və s. sahələrdə aparılan işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

İkinci "Yüksəliş" müsabiqəsinin qalibləri Fərrux Məhərrəmli və Nərgiz Balakişiyeva da müsabiqənin mentorluq proqramı çərçivəsində iclasda iştirak ediblər.



**Heydər Əliyev İli 2023**

# Ulu Öndərin amalları işığında gerçəkləşdirilən Böyük qayıdış

Hər zaman azərbaycanlı olması ilə fəxr edən və ömrünü Azərbaycan xalqının rifahına, inkişafına həsr edən dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev bu müqəddəs amal uğrunda əzmlə çalışıb, Azərbaycanı düşdüyü ən ağır bəlalardan, böhranlardan xilas edərək ona qurtuluş yolu açıb, xalqımızın işıqlı gələcəyi naminə ömrünü şam kimi əridib.



Hələ Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu illərdə sovet rejiminin məhdudiyyətlərinə, müəyyən çərçivələrinə baxmayaraq, respublikamızın hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyətli işlər həyata keçirən Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanın qurtuluşu oldu. Ümummilli Lider Heydər Əliyev şəxsi əzmi və iradəsi sayəsində millətimizi, dövlətimizi üzləşdiyi ağır və böhranlı vəziyyətdən xilas etmək kimi tarixi və şərəfli missiyanı layiqincə yerinə yetirdi.

Düzdür, həmin vaxta qədər Azərbaycan özünün dövlət müstəqilliyini elan etmişdi, amma faktiki olaraq bu, formal xarakter daşıyırdı və hər an müstəqilliyimizin itirilməsi kimi dəhşətli bir reallıqla üzüzə idik. Faktdır ki, 1991-1993-cü illərin iyununa qədərki həmin dövrdə Azərbaycan ictimai-siyasi sabitlik olmayan, qeyri-qanuni silahlı dəstələrin özbaşınalıq etdiyi, xaos yaratdığı bir ölkə idi. Digər tərəfdən də hakimiyyətdə olan antimilli qüvvələrin satqınlığı nəticəsində rayonlarımız bir-bir erməni təcavüzkarları tərəfindən işğal olunurdu. Belə ağır və çətin məqamda, məhvolma təhlükəsi qarşısında olduğu anda sanki Tanrı özü Ulu Öndər Heydər Əliyevi Azərbaycan üçün xilaskar göndərmişdi.

Buna görədir ki, Azərbaycanın müqəddəratının dəyişildiyi tarixi günü, 1993-cü il iyunun 15-ni xalqımız özünün Milli Qurtuluş Günü kimi qəbul edərək bayram kimi keçirir.

## Milli prioritet

Ulu Öndər Heydər Əliyevin dövlət başçısı seçilməsindən qısa müddət sonra Azərbaycanın müstəqilliyinin, suverenliyinin təmin olunması üçün mühüm addımlar atıldı. İlk öncə ölkədə ictimai-siyasi sabitliyi bərpa edən Ümummilli Lider Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni inkişafına hesablanmış mühüm qərarlar qəbul etdi.

Ulu Öndərin həmin dövrdə Azərbaycan naminə əldə etdiyi ən böyük tarixi uğur isə Ermənistanla ölkəmiz arasında atəşkəs sazişinin bağlanmasına nail olması oldu. Bundan sonrakı mərhələdə isə böyük siyasətçi Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpası və torpaqlarımızın işğaldan azad olunması istiqamətində beynəlxalq platformalarda mühüm işlər gördü və imkan vermədi ki, Azərbaycanın Ermənistan tərəfindən üzləşdiyi işğalçılıq faktı qərəzli beynəlxalq təşkilatlar, ölkələr tərəfindən ört-basdır edilsin və gündəlikdən çıxarılsın.

Ümummilli Liderin həmin dövrdə qarşısına qoyduğu digər vacib məsələ isə öz dədə-baba yurdlarından zorla didərgin salınan məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması idi.

Ulu Öndər hər zaman çıxışlarında qaçqın və məcburi köçkünlərin problemlərinə toxunur, həmin insanların ağrı-acılarını, çətinliklərini bölüşdüyünü ifadə edərək söyləyirdi ki, "Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".

Özünün də vurğuladığı kimi, qaçqın və məcburi köçkünlərin çətin yaşam şəraiti Ulu Öndəri daim narahat edirdi. Dəfələrlə çadır şəhərciklərinə yollanaraq oradakı vətəndaşlarımızın ağır şəraiti ilə şəxsən tanış olan dahi rəhbər problemlərdən çıxış yolları arayırdı və bu istiqamətdə əlindən gələn hər şeyi edirdi.

1994-cü ildə "Əsrin müqaviləsi" ilə Ulu Öndərin Azərbaycanda təməlini qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsaitin qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi hər birimizin yaddaşındadır. Eləcə də böyük şəxsiyyətin tükənməz səyləri sayəsində məcburi köçkünlərin çox çətin şəraitdə yaşamağa məcbur olduqları çadır düşərgələrinin mərhələli şəkildə ləğvinə başlanılmışdı.

2001-ci ildə Ulu Öndər Heydər Əliyevin fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salınmış və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edilmişdi.

Ulu Öndər Heydər Əliyevin gündəliyində duran milli prioritet isə torpaqlarımızın işğaldan azad edilməsi və yurdlarından zorla didərgin salınan vətəndaşlarımızın tarixi torpaqlarına qayıdışı idi. Gec və ya tez Azərbaycanın öz ərazi bütövlüyünü təmin edəcəyinə qəti şəkildə əmin olan Heydər Əliyev bu sarsılmaz inamını belə ifadə etmişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".

## Xilaskarlıq missiyası

Ümummilli Liderin ümid və inamla dolu həmin tarixi çıxışındakı arzusunu isə fenomen şəxsiyyətin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev 2020-ci ildə qətiyyətlə gerçəkləşdirdi. 44 günlük Vətən müharibəsi zamanı "dəmir yumruğu"nun bir həmləsi ilə düşməni məğlubiyyətə uğradan Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı 30 illik erməni işğalından azad etdi, yurdlarından didərgin salınmış keçmiş məcburi köçkünlərin vətən həsrətinə son qoydu.

Bir məqamı da vurğulayım ki, hələ torpaqlarımız işğalda olduğu müddət ərzində də qaçqın və məcburi köçkünlərin problemlərinin həlli daim Prezident İlham Əliyevin diqqətində idi. Təkcə bu nümunələri gətirək ki, dövlət başçısı İlham Əliyev 2003-2007-ci illər ərzində Azərbaycanda bütün çadır şəhərciklərini ləğv etmiş, eləcə də 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salınmışdı.

Lakin Ulu Öndər amallarını müvəffəqiyyətlə gerçəkləşdirən Prezident İlham Əliyevin əsl məram və məqsədi torpaqlarımızı işğaldan azad etmək və məcburi köçkünlərimizi öz yurdlarına qaytarmaq idi. Buna görə də ötən illər ərzində Azərbaycanın beynəlxalq arenada mövqelərini möhkəmləndirən, ölkənin iqtisadiyyatını gücləndirən dövlət başçısı İlham Əliyev müasir ordu quruculuğuna diqqəti artıraraq Silahlı Qüvvələrimizi dünyanın ən güclüləri sırasına yüksəltdi.

Elə bu sadalanan nailiyyətlər sayəsində də Azərbaycan Vətən savaşında cəmi 44 gün ərzində təcavüzkar Ermənistanı kapitulyasiyaya məcbur etdi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu düşmənin külünü göyə sovurdu.

Özüm də kəlbəcərli olaraq məcburi köçkünlüyün ağrı-acısını illərlə yaşamış biri kimi deyim ki, xilaskar liderimiz İlham Əliyev bizə "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz..." müjdəsini verəndə sevinc gözyaşlarına boğulduq, illərdir həsrətində olduğumuz yurdlarımıza tezliklə dönəcəyimizin xoşbəxtliyini yaşadıq.

## Böyük qayıdış sevinci

Vətən müharibəsindən dərhal sonra qurucu liderimiz İlham Əliyevin rəhbərliyi və şəxsi nəzarəti altında işğaldan azad edilmiş torpaqlara yenidən həyatı qaytarmaq üçün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və quruculuq işlərinə start verilib. Hazırda 30 il ərzində düşmənin viranə qoyduğu yurdlarımız əsl cənnətməkana çevrilir. İşğaldan azad edilən torpaqlarımızda müasir infrastruktur qurulur, yollar çəkilir, tunellər salınır, beynəlxalq hava limanları tikilib istifadəyə verilir. Bölgənin hərtərəfli inkişafına mühüm töhfə olan bu hava limanlarından ikisinin - Füzuli və Zəngilan hava limanlarının Prezident İlham Əliyev tərəfindən açılışı olub, Laçın Beynəlxalq Hava Limanının isə sürətli tikintisi gedir.

Artıq Böyük qayıdışa da uğurlu start verilib və "ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Zəngilanın Ağalı kəndinin sakinləri öz isti od-ocaqlarına qayıdaraq xoşbəxt həyata başlayıblar. Tezliklə digər işğaldan azad olunan rayonlarımıza da qayıdış köçü başlayacaq.

Qalib liderimiz İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura mütəmadi səfərləri zamanı bu ərazilərimizdə gerçəkləşdirilən irimiqyaslı tikinti quruculuq işlərinin şahidi oluruq. O cümlədən də Kəlbəcərdə nəhəng layihələr gerçəkləşdirilir. Kəlbəcər rayonunun mürəkkəb coğrafi şəraiti nəzərə alınaraq, Murovdağın altı ilə çəkilən uzunluğu 12 kilometrə yaxın olan tunel rayonumuzun inkişafında misilsiz rol oynayacaq. Ötən il iyunun 26-da Kəlbəcərə səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcər rayonunun inkişafı ilə bağlı konsepsiyanın hazır olduğu şad xəbərini bizə verdi. Artıq rayonda hərbi hissələr, bəzi qurumlar fəaliyyət göstərir.

Baş planında təbii gözəlliyi ehtiva olunan Kəlbəcər şəhərində yaşayış binaları, məktəb, xəstəxana, dövlət başçısının göstərişinə əsasən, aşıq mərkəzi inşa ediləcək. Xilaskar başçımız İlham Əliyev tərəfindən Kəlbəcərin simvolu "İstisu" sanatoriyasının təməli də qoyulub. Bir sözlə, işğaldan azad olunan digər rayonlarımızda olduğu kimi, Kəlbəcərə də həyat qaytarılır.

## Ulu Öndərin ideyalarını yaşadan Heydər Əliyev Fondu

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Ulu Öndərin amallarını yaşadan, ideyalarını gerçəkləşdirən Heydər Əliyev Fondu da işğaldan azad edilən ərazilərdə aparılan quruculuq işlərinə töhfə verir. Xüsusilə də fond tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi, mədəni, dini irsimizin bərpası istiqamətində mühüm layihələr həyata keçirilir.

Bir sözlə, Azərbaycan dövləti Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması, illərdir torpaq həsrəti ilə yaşayan insanlarımızın yurdlarına qovuşması üçün böyük işlər gerçəkləşdirir.

Bu tarixi uğurlar isə vaxtilə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi qayıdış siyasətinin dövlət başçısı İlham Əliyev tərəfindən müvəffəqiyyətlə reallığa çevrilməsidir.

Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ərəfəsində torpaqlarımızı işğaldan azad edərək Böyük qayıdışı gerçəkləşdirən xilaskar lider İlham Əliyev bununla həm də müqəddəs ata nəsihətini yerinə yetirib və azərbaycanlı olmağı ilə fəxr edən, xalqının, dövlətinin rifahı naminə ömrünü şam kimi əridən Ulu Öndərin ruhunu şad edib.

**Həbib MİSİROV,**
***Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının sədri***

# Ağdamda Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun Ağdam şəhərində iclası keçirilib.

















AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzi Katibliyinin rəhbərinin müavini Sultan Hacıyev, İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

İşçi qrupun iclasında dövlət və özəl strukturlar tərəfindən daxil olmuş müraciətlərə və hökumətin müəyyən etdiyi prioritetlərə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müvafiq layihələrin icrası məqsədilə nəzərdə tutulmuş ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi fəaliyyəti barədə müzakirələr aparılıb.

İclasda açılış nitqi ilə çıxış edən Vüqar Süleymanov İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunan dövlət və özəl qurumları tərəfindən 68 min hektar ərazinin mina və partlamamış hərbi sursatlardan təmizləndiyini, 82 mindən artıq partlayıcı qurğunun aşkar edilərək zərərsizləşdirildiyini bildirib. Eyni zamanda Böyük qayıdış proqramı çərçivəsində Ağdam üzrə strateji əhəmiyyətə malik layihələrin minalardan təmizlənməsi və əlaqəli şəkildə icra edilən bərpa-quruculuq istiqamətində görülən əhəmiyyətli işlər barədə məlumat verib.

İclasda çıxış edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev ölkə Prezidentinin azad edilmiş ərazilərin yenidən qurulması və dayanıqlı məskunlaşmanın təmin edilməsi istiqamətindəki tapşırıqlarına uyğun olaraq Qarabağda aparılan minatəmizləmə fəaliyyəti və sosial-iqtisadi layihələrdən danışıb.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Sultan Hacıyev Əlaqələndirmə Qərargahının ötən dövr ərzindəki fəaliyyətindən, işğaldan azad edilmiş ərazilərdə aparılan minatəmizləmə əməliyyatlarından sonra həyata keçirilən bərpa, quruculuq işlərindən, habelə 2023-cü ildə qarşıda duran vəzifə və öhdəliklərdən söz açıb.

Sonra işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müxtəlif özəl və dövlət qurumunun əməkdaşları üçün keçirilən təlimlərin əhəmiyyəti, minatəmizləmə sahəsində mövcud resursların birgə faydalı istismarına dair müzakirələr aparılıb.

Ağdam rayonunda keçirilən tədbir çərçivəsində minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumların 2023-cü il üzrə hökumət tərəfindən müəyyən edilmiş ərazilərdə icra etdiyi təmizləmə sahələrinə səfərlər edilib, layihələrin icrasına baxış keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı

### 1. Qısa xülasə

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə 2023-2025-ci illəri əhatə edən bu Milli Fəaliyyət Planı ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə səylərin gücləndirilməsinə, bu sahədə müxtəlif iştirakçılar - məhkəmə və cinayət təqibi orqanları, nəzarət orqanları, digər səlahiyyətli qurumlar, habelə özəl sektor arasında əməkdaşlıq imkanlarının artırılmasına və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılmasına istiqamətlənən tədbirlərin sistemli və əlaqəli şəkildə həyata keçirilməsinə əlverişli şərait yaradır.

### 2. Qlobal trendlər

Qlobal miqyasda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması üzrə müşahidə edilən dinamika bu təhdidlərə münasibətdə həm beynəlxalq, həm də regional səviyyədə əlaqələndirilmiş mübarizə tədbirlərinin görülməsini zəruri edir.

Digər tərəfdən isə regional və beynəlxalq müstəvidə terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə son illərdə müşahidə edilməkdə olan tendensiyalar da dövlətlər üçün iqtisadi və milli təhlükəsizliyin təmin edilməsi baxımından yeni çağırışlar doğurur.

Bundan başqa, ölkə iqtisadiyyatları, xüsusilə maliyyə sistemləri arasında asılılığın güclənməsi, habelə maliyyə texnologiyalarının tətbiqi imkanlarının hədsiz artması, yeni növ rəqəmsal iqtisadiyyat elementlərinin meydana çıxması ümumi iqtisadi inkişafa təkan verməklə yanaşı, qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi üçün də əlverişli zəmin yaradır.

Maliyyə axınlarının ölkələrarası hərəkətinin genişlənməsi, müxtəlif növ texnoloji vasitələrdən istifadə edilməklə anonim maliyyə əməliyyatlarının aparılması imkanları, habelə maliyyə xidmətlərinin texnoloji əlçatanlığının artmasından qaynaqlanan risklər bu proseslərin tənzimlənməsini, xüsusilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində effektiv monitorinq mexanizmlərinin yaradılmasını çətinləşdirir.

Bu baxımdan dünya iqtisadiyyatında baş verən struktur dəyişiklikləri, habelə qlobal səviyyədə iqtisadi cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi istiqamətində son illərdə artan çoxtərəfli təşəbbüslər dünya iqtisadiyyatına dərin inteqrasiya yolunu seçmiş ölkəmiz qarşısında iqtisadiyyatın, xüsusilə bank-maliyyə sektorunun dayanıqlılığının təmin edilməsi istiqamətində yeni vəzifələr qoyur.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması müasir dövrdə iqtisadi fəaliyyət sahəsində mütəşəkkil cinayətkarlığın ən geniş təzahür formalarından biridir. Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, o, bir sıra mühüm ictimai dəyərlərə mənfi təsir göstərir, mütəşəkkil cinayətkarlığın maliyyə bazasını formalaşdırır və qeyri-leqal iqtisadi fəaliyyəti pərdələyir. Maliyyə sistemindən qeyri-qanuni məqsədlər üçün istifadənin iqtisadi təhlükəsizlik üçün problemlər doğurmasından əlavə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılaraq rəsmi maliyyə-iqtisadi sistemə daxil edilməsinə imkan verilməsi ictimai nizamın və qanunun aliliyinin pozulması ilə nəticələnə bilir.

### 3. Mövcud vəziyyətin təhlili

Ölkəmizdə aparılan çoxşaxəli dövlət quruculuğu, iqtisadi və məhkəmə-hüquq sistemi islahatlarının tərkib hissəsi kimi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində də ötən dövr ərzində bir sıra işlər görülmüş və mühüm nəticələr əldə olunmuşdur. Bu sahədə beynəlxalq standartları müəyyən edən FATF tövsiyələrinə uyğun olaraq yeni qanunlar qəbul edilmiş, ölkədaxili əməkdaşlığın təmin edilməsi üçün yeni mexanizmlər formalaşdırılmış, ixtisaslaşmış institutların fəaliyyət effektivliyinin artırılması üçün addımlar atılmış, həmçinin müvafiq sahədə beynəlxalq əməkdaşlıq imkanları genişləndirilmişdir. Ötən dövr ərzində ölkəmiz həmçinin Avropa Şurasının MONEYVAL Komitəsinin dördüncü raund qiymətləndirməsini uğurla başa vurmuşdur.

### 4. Hədəf göstəricilər

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizdə əldə edilmiş nailiyyətlər qlobal dəyişikliklərə çevik adaptasiyanın təmin edilməsi istiqamətində bundan sonra da məqsədyönlü və əlaqələndirilmiş fəaliyyəti şərtləndirir. 2021-2022-ci illərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkə üzrə ikinci risk qiymətləndirilməsi həyata keçirilmiş, bu sahədə mübarizə sisteminin müxtəlif komponentləri, habelə ölkəyə xas struktur və kontekstual amillər təhlil edilərək, başlıca təhdid və zəiflik mənbələri müəyyən edilmişdir. Risk qiymətləndirilməsində müəyyən edilən başlıca təhdidlərin neytrallaşdırılması, zəifliklərin isə aradan qaldırılması məqsədilə qəbul edilən bu Milli Fəaliyyət Planı konseptual olaraq risk əsaslı nəzarət və yüksək səviyyədə əlaqələndirilmiş mübarizə mexanizmlərinin formalaşdırılmasını özündə ehtiva edir.

### 5. Məqsədlər

Milli Fəaliyyət Planında yer alan kompleks tədbirlərin icrası müvafiq sahədə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin ortamüddətli dövr üçün strateji baxışını əks etdirir. Milli Fəaliyyət Planının əsas məqsədi ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması və yeni keyfiyyət meyarları əsasında davam etdirilməsidir.

### 6. Prioritet istiqamətlər

Milli Fəaliyyət Planı aidiyyəti dövlət qurumları, nəzarət orqanları və özəl sektor tərəfindən risklərin başa düşülməsi, azaldılması və ya qarşısının alınması məqsədilə səmərəli tədbirlərin həyata keçirilməsinə, habelə qanunvericiliyin tətbiqi ilə bağlı fəaliyyətlərinin effektiv əlaqələndirilməsinə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi mexanizminin daha təkmil əsaslar üzərində formalaşdırılmasına, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və nəhayət, müvafiq sahədə institusional potensialın gücləndirilməsinə xidmət edir.

### 7. Maliyyələşdirilmə mexanizmləri

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin müvafiq icraçı qurumlar üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

### 8. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər

| Sıra №-si | Tədbirin adı | Əsas icraçılar | Digər icraçılar | İcra müddəti | İlkin nəticə | Aralıq nəticə | Yekun nəticə |
|---|---|---|---|---|---|---|---|
| **8.1. Öhdəlik daşıyan şəxslər üzrə preventiv sistemin gücləndirilməsi** | | | | | | | |
| 8.1.1. Müştəri profili məlumatlarının toplanması və müştəri profili risklərinin qiymətləndirilməsi sahəsində tədbirlər | | | | | | | |
| 1. | Öhdəlik daşıyan şəxslər tərəfindən müştəri profili risklərinin (müştəri, coğrafi yerləşmə, məhsul, xidmət və çatdırılma kanalları) müəyyən edilməsi ilə bağlı qanunvericiliyin tətbiqi mövzusunda işçi görüşlərin, təlim və müzakirələrin həyata keçirilməsi | MMX, ƏN, DVX Tövsiyə edilir: AMB, VK | aidiyyəti sahəvi qeyri-kommersiya qurumları - ABA, ASA, AFBİA, ANP cəlb edilməklə | İyul, 2023 | Müştəri profillərinin tam olaraq komplektləşdirilməsi və müştəri profili riskinin müəyyən edilməsi | Müştəri profillərinin formalaşması zamanı risk əsaslı yanaşmaya keçid | Öhdəlik daşıyan şəxslər tərəfindən risk əsaslı yanaşmanın tətbiqi və institusional risk qiymətləndirilməsi üçün əsasların formalaşdırılması |
| 2. | Öhdəlik daşıyan şəxslərdə mövcud müştəri profili məlumatlarının qanunvericiliyin yeni tələblərinə uyğun olaraq tam şəkildə toplanmasının təmin edilməsi | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | Banklara, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılara münasibətdə - mart, 2024<br>Digər maliyyə institutlarına münasibətdə - mart 2025<br>Qeyri-maliyyə institutları və peşə sahiblərinə münasibətdə - mart, 2024 | | | |
| 3. | Müştərilərə öhdəlik daşıyan şəxslər tərəfindən təqdim olunan məhsul, xidmət və çatdırılma kanallarının xüsusiyyətləri ilə bağlı risk faktorlarının qiymətləndirilməsinin təmin edilməsi | | | Dekabr, 2023 | | | |
| 4. | Müştəri profilləri üzrə risk dərəcələrinin öhdəlik daşıyan şəxslər tərəfindən formalaşdırılmasının təmin edilməsi | | | Banklara, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılara münasibətdə - mart, 2024<br>Digər maliyyə institutlarına münasibətdə - mart, 2025 Qeyri-maliyyə institutları və peşə sahiblərinə münasibətdə - mart, 2024 | | | |
| 8.1.2. Sahəvi və ölkə səviyyəsində müəyyən edilmiş risklər əsas götürülməklə institusional risk qiymətləndirilməsinin aparılması sahəsində tədbirlər | | | | | | | |
| 1. | Öhdəlik daşıyan şəxslər tərəfindən illik institusional risk qiymətləndirməsinə (bu qiymətləndirməni kənar mütəxəssislərin aparması halı istisna olmaqla) dair metodologiyanın hazırlanmasının təmin edilməsi | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | 2025 | İnstitusional səviyyədə risklərin qiymətləndirilməsi üzrə metodologiyaların hazırlanması | İnstitusional səviyyədə risklərin başa düşülməsi və bu risklərin azaldılmasına dair addımlar atılması | Sahəvi risk qiymətləndirilmələrinin keyfiyyətinin artırılması |
| 2. | İllik institusional risk qiymətləndirilməsinə dair metodologiya üzrə öhdəlik daşıyan şəxslər tərəfindən illik əsasda aparılmış institusional risk qiymətləndirilməsi nəticələrinin əldə edilməsinin təmin olunması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | 2025-ci ilin birinci rübü ərzində | | | |
| 8.1.3. İrihəcmli nağd əməliyyatlar üzrə müntəzəm monitorinq sisteminin formalaşdırılması | | | | | | | |
| 1. | Müştəri profili üzrə risk dərəcəsinə müvafiq olaraq irihəcmli hesab edilə bilən nağd əməliyyatların araşdırılmasında vahid yanaşmanın təmin edilməsi məqsədilə metodologiyanın və risk indikatorlarının formalaşdırılması | MMX | DVX, ƏN, AP<br>**Tövsiyə edilir:** AMB, VK (aidiyyəti sahəvi qeyri-kommersiya qurumları - ABA, ASA, AFBİA, ANP cəlb edilməklə) | Sentyabr, 2023 | İrihəcmli nağd əməliyyatların araşdırılması üçün metodoloji yanaşmaların formalaşdırılması | İrihəcmli nağd əməliyyatlar aparan müştərilərin işgüzar münasibətlərinin mütəmadi monitorinqi sisteminin formalaşdırılması | Vəsaitin mənbəyi bilinməyən və ya şübhə yaradan hallarla bağlı hesabatlılığın təmin edilməsi və təxirəsalınmaz addımlar atılması təcrübəsinin formalaşdırılması |
| 2. | Riskin yüksək olduğu hallarda nağd əməliyyatlar aparan müştərilərin vəsaitlərinin mənbəyinin müəyyən edilməsi məqsədilə işgüzar münasibətlərin monitorinqinin intensivliyinin artırılması mexanizminin yaradılması | DVX<br>**Tövsiyə edilir:** AMB, VK | | 2024 | | | |
| 8.1.4. Dövlət qeydiyyatına alınmış fiziki mövcudluğu olmayan hüquqi şəxslərlə (bundan sonra - şel şirkət) işgüzar münasibətlərin qurulması və davam etdirilməsi üçün mexanizmlərin formalaşdırılması | | | | | | | |
| 1. | Öhdəlik daşıyan şəxslər tərəfindən hüquqi şəxslərlə işgüzar münasibətlərin məqsəd və mahiyyətinin araşdırılması, bu çərçivədə onların şel şirkət olub-olmamasının araşdırılmasına dair metodoloji meyarların hazırlanması | MMX | | İyul, 2023 | Şel şirkət olan müştərilərin müəyyən edilməsi | Müəyyən edilmiş şel şirkətlərdən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması məqsədilə istifadə olunmasının tipik üsul və vasitələrinin müəyyən edilməsi | Şel şirkətlərdən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması məqsədilə istifadənin qarşısının alınması |
| 2. | Hüquqi şəxsin şel şirkət olub-olmamasının araşdırılmasına dair metodoloji meyarların tətbiqi təcrübəsinin formalaşdırılması | DVX Tövsiyə edilir: AMB, VK | | 2024 | | | |
| 3. | Müəyyən edilmiş şel şirkətlərlə işgüzar münasibətlərin dayandırılmasına dair beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyin təkmilləşdirilməsi zərurətinin araşdırılması | MMX | ƏN | Sentyabr, 2023 | | | |
| 8.1.5. Birdəfəlik əməliyyatların monitorinqi mexanizminin qurulması | | | | | | | |
| 1. | Öhdəlik daşıyan şəxslərin fəaliyyət xüsusiyyətlərindən asılı olaraq birdəfəlik əməliyyat növlərinin siyahısının hazırlanması | MMX | ƏN, DVX<br>**Tövsiyə edilir:**<br>AMB, VK (aidiyyəti sahəvi qeyri-kommersiya qurumları - ABA, ASA, AFBİA, ANP cəlb edilməklə) | Avqust, 2023 | Birdəfəlik əməliyyatlarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarının müəyyənləşdirilməsi | Birdəfəlik əməliyyatlar üzrə əhatəli hesabatlılıq rejiminin yaradılması | Birdəfəlik əməliyyatların monitorinqə cəlb edilməsi |
| 2. | Birdəfəlik əməliyyat növlərinin siyahısı hazırlandıqdan sonra icra edilən birdəfəlik əməliyyatlar zamanı müştəri uyğunluğu tədbirlərinin tətbiqinə nəzarətin təmin edilməsi | DVX, ƏN<br>**Tövsiyə edilir:**<br>AMB, VK | MMX | Birdəfəlik əməliyyat növlərinin siyahısı formalaşdırıldıqdan sonra mütəmadi | | | |
| 8.1.6. Benefisiar mülkiyyətçinin müəyyən edilməsi mexanizmlərinin təkmilləşdirilməsi | | | | | | | |
| 1. | Benefisiar mülkiyyətçinin müəyyən edilməsinə dair metodologiyanın təkmilləşdirilməsi | MMX | | Mart, 2023 | Benefisiar mülkiyyətçinin müəyyənləşdirilməsinə dair tələbləri əhatə edən normativ xarakterli aktların qəbulu | Benefisiar mülkiyyətçilər barədə məlumatlara əlçatanlığın təmin edilməsi | Benefisiar mülkiyyətçinin müəyyən edilməsinin təkmilləşdirilməsi |

*Ardı 8-ci səh.*

*Əvvəli 7-ci səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. | Qanunvericiliyin yeni tələblərinə və təkmilləşdirilmiş metodologiyaya uyğun olaraq müştərilərə münasibətdə benefisiar mülkiyyətçinin müəyyən edilməsi mexanizminin formalaşdırılması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | Mütəmadi | | | |
| 8.1.7. | Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının qanunvericiliyin yeni tələblərinə uyğun qurulmasının təmin olunması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | Mütəmadi | Öhdəlik daşıyan şəxslərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə infrastrukturunun qurulması | Öhdəlik daşıyan şəxslərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə potensialın artırılması | Öhdəlik daşıyan şəxslərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə preventiv tədbirlərin tam tətbiq edilməsi |
| **8.2. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarət mexanizmlərinin təkmilləşdirilməsi** | | | | | | | |
| 8.2.1. İllik əsasda sahəvi risk qiymətləndirilməsinin həyata keçirilməsi və ölkə risk qiymətləndirilməsinin yenilənməsinin təmin edilməsi | | | | | | | |
| 1. | Sahəvi risk qiymətləndirilməsinə dair metodoloji əsasların müəyyən edilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, VK | MMX | Avqust, 2023 | Sahəvi risk qiymətləndirilməsinin aparılmasına dair beynəlxalq təcrübənin araşdırılması | Sahəvi risk qiymətləndirilməsi üzrə indikatorların müəyyən edilməsi | Sahəvi risk qiymətləndirilməsinə dair metodologiyanın hazırlanması |
| 2. | İnstitusional risk qiymətləndirilməsi nəticələrinin sahəvi risk qiymətləndirilməsində nəzərə alınması ilə bağlı mexanizmlərin formalaşdırılması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | 2024-cü ildən etibarən illik əsasda | İnstitusional risklərin müntəzəm qiymətləndirilməsi təcrübəsinin formalaşdırılması | İnstitusional risklərin başa düşülməsi və azaldılmasına nəzarət mexanizminin formalaşdırılması | Sahəvi risk qiymətləndirilməsinin effektivliyinin artırılması |
| 3. | Nəzarət orqanları tərəfindən sahəvi risk qiymətləndirilməsi aparılmasının təmin edilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, AP, VK | | İllik əsasda | Müxtəlif sektorlar üzrə sahəvi risk qiymətləndirilməsi hesabatlarının hazırlanması | Sahəvi risk qiymətləndirilməsi nəticələri üzrə məlumatlandırma fəaliyyətlərinin icrası | Sahəvi risk qiymətləndirilməsi əsasında ölkə risk qiymətləndirilməsinin yenilənməsi |
| 4. | Sahəvi risk qiymətləndirilməsi nəticələrinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 20.2-ci maddəsinə uyğun olaraq yaradılan Koordinasiya Şurasına (bundan sonra - Koordinasiya Şurası) təqdim edilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, AP, VK | | 2024-cü ildən etibarən illik əsasda | | | |
| 8.2.2. Nəzarət orqanlarının potensialının gücləndirilməsinə dair tədbirlər görülməsi | | | | | | | |
| 1. | Nəzarət orqanlarında ixtisaslaşmış struktur bölməsinin yaradılması məsələsinin nəzərdən keçirilməsi və kadr potensialının artırılması | DVX, DQİDK, ƏN<br>**Tövsiyə edilir:** AMB, AP, VK | | 2023 | Nəzarət orqanlarının bu sahədə ixtisaslaşmış işçilərinin say tərkibinin optimallaşdırılması | Nəzarət orqanlarında mütəmadi və hədəfli təlim proqramlarının tətbiqi | Nəzarət orqanlarının işçi heyətinin potensialının gücləndirilməsi |
| 2. | Nəzarət orqanlarının əməkdaşları üçün sahəvi risklərə uyğun olaraq illik təlim planına əsasən təlimlər keçirilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, AP, VK | MMX | Təlim planı üzrə mütəmadi | | | |
| 3. | Keçirilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi | | | İllik əsasda | | | |
| 8.2.3. Öhdəlik daşıyan şəxslərə, auditor xidməti göstərən şəxslərə, dini qurumlara, qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə tələblərə, ölkə risk qiymətləndirilməsi zamanı aşkar edilmiş zəifliklərə və təhdidlərə dair təlimlər keçilməsi | | | | | | | |
| 1. | Nəzarət orqanları tərəfindən müəyyən edilmiş risklərə (ölkə, sahəvi və institusional) uyğun olaraq illik təlim planına əsasən təlimlər keçilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, AP, VK | MMX | Təlim planı üzrə mütəmadi | Müntəzəm və hədəfli təlim proqramlarının formalaşdırılması | Öhdəlik daşıyan şəxslər, auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri üzrə potensialın yüksəldilməsi | Risk əsaslı yanaşmaya keçidin təmin edilməsi |
| 2. | Keçilmiş təlimlər barədə Koordinasiya Şurasına məlumatın təqdim edilməsi | | | İllik əsasda | | | |
| 8.2.4. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə risk əsaslı nəzarətin həyata keçirilməsi üçün tənzimləyici və institusional bazanın formalaşdırılması | | | | | | | |
| 1. | Nəzarət orqanlarının risk əsaslı nəzarət qaydalarının hazırlanması və təsdiq olunması | DVX, DQİDK, ƏN,<br>**Tövsiyə edilir:** AP, VK | | İyul, 2023 | Sektor üzrə risklərin başa düşülməsi | Nəzarət mexanizminin institusional əsaslarının təkmilləşdirilməsi | Qayda əsaslı nəzarət mexanizmindən risk əsaslı nəzarət mexanizminə keçidin təmin edilməsi |
| 2. | Sahəvi risk qiymətləndirilməsi əsasında öhdəlik daşıyan şəxslər, auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri üzrə müəyyən edilmiş risklərə uyğun olaraq onların bölgüsünün aparılması | | | Oktyabr, 2023 | | | |
| 3. | Hər bir nəzarət orqanı tərəfindən risk əsaslı yanaşma rəhbər tutularaq cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət strategiyasının hazırlanması | | | Noyabr, 2023 | | | |
| 8.2.5. Nəzarət orqanları ilə MMX-nin effektiv əməkdaşlıq mexanizmlərinin yaradılması | | | | | | | |
| 1. | Öhdəlik daşıyan şəxslərin qeydiyyat, icazə və lisenziyalaşdırma prosesində və nəzarət yoxlamaları zamanı öhdəlik daşıyan şəxslərdə mühüm iştirak payı sahibinin və benefisiar mülkiyyətçinin, idarəetmə funksiyalarını yerinə yetirən şəxslərin, habelə onlarla yaxın münasibətdə olan şəxslərin vətəndaş qüsursuzluğu tələblərinə cavab verib-verməməsini müəyyənləşdirmək üçün MMX-nin məlumatlarından istifadə edilməsi mexanizminin yaradılması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | MMX | Mütəmadi | Nəzarət orqanları ilə MMX arasında əməkdaşlıq çərçivəsinin genişləndirilməsi | Nəzarət orqanlarının fəaliyyəti üzrə məlumat toplanmasının sistemləşdirilməsi | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkədaxili fəaliyyətin koordinasiyasının təmin edilməsi |
| 2. | Nəzarət orqanları tərəfindən aparılan nəzarət yoxlamalarının sayı, əhatə dairəsi, tətbiq edilən sanksiyaların sayı və xarakteri barəsində statistik məlumatların Koordinasiya Şurasına təqdim edilməsi | DVX, DQİDK, ƏN<br>**Tövsiyə edilir:** AP, VK | | İllik əsasda | | | |
| 3. | Nəzarət yoxlamaları çərçivəsində öhdəlik daşıyan şəxslər tərəfindən təqdim olunan məlumatların yoxlanılması üsullarının təkmilləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübədə tətbiq edilən yoxlama üsullarının ölkəmizdə tətbiqi imkanlarının araşdırılması | DVX, ƏN<br>**Tövsiyə edilir:** VK | | Mütəmadi | | | |
| 8.2.6. Nəzarət yoxlamaları zamanı şübhəli halların MMX-yə göndərilməsi üzrə sistematik təhlil aparılması və müvafiq tədbirlər görülməsi | | | | | | | |
| 1. | Nəzarət orqanları tərəfindən nəzarət yoxlamalarının gedişində şübhəli hallara dair məlumatların müəyyən edilməsinə və MMX-yə təqdim edilməsinə dair sistematik təhlillər aparılması, əldə olunmuş nəticələr əsasında şübhəli hallara dair məlumatlarla bağlı çatışmazlıqların aradan qaldırılması sahəsində səmərəli mexanizmlərin müəyyən edilməsi | DVX, ƏN, DQİDK<br>**Tövsiyə edilir:** AMB, AP, VK | | Mütəmadi | Şübhəli hallara dair məlumatların keyfiyyətinin sistematik təhlili | Şübhəli hallara dair məlumatlarla bağlı çatışmazlıqların aradan qaldırılması | MMX-yə göndərilmiş şübhəli hallar barədə məlumatların effektivliyinin və tamlığının təmin edilməsi |
| 2. | Öhdəlik daşıyan şəxslərin MMX-yə təqdim etdiyi şübhəli hallara dair məlumatların MMX tərəfindən geriyə məlumatlandırma çərçivəsində verilmiş məlumatlar əsasında keyfiyyətinin və istifadəyə yararlılığının yoxlanılması | DVX, ƏN<br>**Tövsiyə edilir:** AMB, VK | | | | | |
| 8.2.7. | Maliyyə institutlarının fəaliyyətinə dair icazələr və lisenziyalar verilməsi zamanı nizamnamə kapitalının mənbəyinin müəyyən edilməsi, mühüm iştirak payının sahibinin, benefisiar mülkiyyətçinin və idarəetmə funksiyalarını yerinə yetirən şəxslərin, habelə onlarla yaxın münasibətdə olan şəxslərin məqbul və lazımi keyfiyyətlərə malik şəxs meyarlarına cavab verməsinin müəyyən edilməsi üzrə qanunvericilik əsaslarının beynəlxalq standartlara uyğunlaşdırılması işlərinin yekunlaşdırılması | NK<br>**Tövsiyə edilir:** AMB | | Dekabr, 2023 | Milli qanunvericiliyin müvafiq beynəlxalq standartların tələblərinə uyğunluğunun qiymətləndirilməsi | Milli qanunvericiliyin müvafiq beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması üzrə təkliflər hazırlanması | Məqbul və lazımi keyfiyyətlərə malik olmayan şəxslərin maliyyə institutlarında mühüm iştirak payına malik olmasının, onların benefisiar mülkiyyətçisi olmasının və ya idarəetmə funksiyalarını yerinə yetirməsinin qarşısının alınmasının təmin edilməsi |
| **8.3. Məhkəmə və cinayət təqibi orqanlarının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyətinin effektivliyinin gücləndirilməsi** | | | | | | | |
| 8.3.1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməllərinin effektiv cinayət təqibinin həyata keçirilməsi | | | | | | | |
| 1. | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətinin təqibi zamanı əməlin tövsifi ilə bağlı yaranan problemlərin həlli üçün təkliflər verilməsi | **Tövsiyə edilir:** Baş Prokurorluq | DVX, DİN, DTX, MMX, ƏN<br>**Tövsiyə edilir:** Ali Məhkəmə | Avqust, 2023 | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması sahəsində effektiv cinayət təqibinin həyata keçirilməsi üçün qanunvericilik əsaslarının təkmilləşdirilməsi zərurətinin öyrənilməsi | Cinayət təqibi zamanı maliyyə təhlili məlumatlarından mütəmadi istifadənin təmin edilməsi | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması sahəsində effektiv cinayət təqibinə nail olunması |
| 2. | Cinayət təqibinin həyata keçirilməsi zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi və bu məlumatlara olan ehtiyacların təhlil edilməsi, müvafiq çağırışlara yönələn tədbirlərin həyata keçirilməsinə şərait yaradacaq təkliflər hazırlanması | Tövsiyə edilir: Baş Prokurorluq DTX, DVX, DİN | | Mütəmadi | | | |

*Ardı 9-cu səh.*

*Əvvəli 8-ci səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.2. Predikativ cinayətlərin ibtidai araşdırılması zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın effektiv axtarışı, müsadirə edilməsi və aktivlərin bərpası mexanizmlərinin yaradılması | | | | | | | |
| 1. | Cinayət təqibi üzrə ibtidai araşdırma zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın axtarışı, müəyyən edilməsi və aktivlərin bərpası sahəsində fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə paralel maliyyə araşdırmasının aparılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | DTX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | 2023 | Paralel maliyyə araşdırması sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və qiymətləndirilməsi | Cinayət təqibini həyata keçirən orqanların maddi-texniki və informasiyaya çıxış imkanları ilə təmin edilməsi, maliyyə məlumatlarının əldəedilmə müddətinin azaldılması | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması sahəsində effektiv cinayət təqibinə nail olunması |
| 2. | Cinayət təqibini həyata keçirən aidiyyəti dövlət orqanlarında paralel maliyyə araşdırmasını həyata keçirəcək ixtisaslaşmış struktur bölmələrinin yaradılmasının mümkünlüyü və məqsədəmüvafiqliyinin araşdırılması | DTX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | İyun, 2024 | | | |
| 3. | Cinayət təqibini həyata keçirən orqanların maliyyə məlumatlarını çevik əldə etməsinə və onlardan operativ istifadə etməsinə imkan verən infrastrukturun qurulması | DİN, DTX, DGK, DSX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | **Tövsiyə edilir:** AMB | İyun, 2024 | | | |
| 4. | Cinayət təqibi üzrə ibtidai araşdırma zamanı maliyyə sahəsində araşdırmaların effektiv aparılması üsullarına dair müvafiq təlimatın hazırlanması | **Tövsiyə edilir:** Baş Prokurorluq | MMX | İyun, 2024 | | | |
| 8.3.3. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi hallarının müəyyən edilməsi məqsədilə cinayət təqibini həyata keçirən orqanlarda sistematik strateji təhlillər aparılmasına imkan verən mexanizmlərin qurulması | | | | | | | |
| 1. | Cinayət təqibini həyata keçirən aidiyyəti orqanlarda strateji təhlillər aparılması üçün zəruri resursların ayrılması | DİN, DTX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | 2023 | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində əsas təhdidlərin cinayət təqibini həyata keçirən orqanlar tərəfindən öyrənilməsi | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində preventiv tədbirlərin gücləndirilməsi məqsədilə ölkədaxili əməkdaşlıq mexanizmlərinin effektivliyinin artırılması | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə əsas təhdidlərin minimum səviyyəyə salınması |
| 2. | Cinayət yolu ilə əldə edilmiş əmlakın formalaşma mənbəyinin müəyyən edilməsi məqsədilə iqtisadi və statistik məlumatlar əsasında strateji təhlillər aparılması, əsas təhdidlərinin öyrənilməsi və buna qarşı mübarizə tədbirlərinin gücləndirilməsi | | | Mütəmadi | | | |
| 3. | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında və terrorçuluğun maliyyələşdirilməsində əsas təhdid doğuran cinayətlər üzrə xarici və daxili risk amilləri nəzərə alınmaqla təhlillər aparılması | | | Mütəmadi | | | |
| 4. | Strateji təhlillər əsasında taktiki planların hazırlanması və yenilənməsi | | | Mütəmadi | | | |
| 8.3.4. MMX tərəfindən təqdim edilən məlumatların vahid sistemdə qeydiyyatı, izlənilməsi və geriyə məlumatlandırılma infrastrukturunun qurulması | | | | | | | |
| 1. | MMX tərəfindən təqdim edilmiş məlumatlar üzrə cinayət işlərinin açılıb-açılmamasına, həmin məlumatlardan cinayət təqibi zamanı istifadə edilib-edilməməsinə, habelə məhkəmə hökmlərinə dair sistematik geriyə məlumatlandırma mexanizminin yaradılması | DİN, DTX, DVX, ƏN **Tövsiyə edilir:** Baş Prokurorluq, Ali Məhkəmə | | 2023 | Məlumatlardan istifadəyə dair əhatəli elektron qeydiyyat sisteminin yaradılması | Məlumatlardan istifadəyə dair elektron qeydiyyat sisteminə aidiyyəti orqanların buraxılışının təmin edilməsi | MMX və cinayət təqibini həyata keçirən müvafiq orqanlar arasında müntəzəm məlumat mübadiləsinin təmin edilməsi |
| 2. | Maliyyə təhlili məlumatlarının əsas rol oynadığı və araşdırması uğurla nəticələnən cinayət işləri üzrə tipologiyaların hazırlanması | **Tövsiyə edilir:** Baş Prokurorluq DİN, DTX | | Mütəmadi | | | |
| 8.3.5. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməlinin effektiv istintaqı məqsədilə strukturdaxili ixtisaslaşma aparılması | | | | | | | |
| 1. | Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsi üzrə ibtidai araşdırma aparmaq səlahiyyəti olan orqanlarda bu sahədə ixtisaslaşmış müstəntiqlərin formalaşdırılmasının təmin edilməsi | DİN, DTX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | May, 2023 | Cinayət təqibini həyata keçirən müvafiq orqanlarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin təqibi üzrə ixtisaslaşmanın təmin edilməsi | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması sahəsində ixtisaslaşmış müstəntiqlərin potensialının gücləndirilməsi üçün tədbirlər görülməsi | Cinayət təqibini həyata keçirən müvafiq orqanlarda peşəkar kadr potensialının formalaşdırılması |
| 2. | Müstəntiqlərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı ilə bağlı təlimlərə cəlb edilməsi | | | Mütəmadi | | | |
| 8.3.6. Predikativ cinayətin ibtidai araşdırılması səlahiyyəti digər istintaq orqanına aid olan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməllərinin cinayət təqibinin həyata keçirilməsi üçün istintaq qruplarının yaradılması təcrübəsinin genişləndirilməsi və ibtidai araşdırmaya nəzarətin gücləndirilməsi | | | | | | | |
| 1. | Əməldə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətinin əlamətləri müəyyən edildikdə predikativ cinayət üzrə ibtidai istintaqın mövcud olması barədə cinayət təqibini həyata keçirən orqanlar arasında kommunikasiya mexanizminin yaradılması | DİN, DTX, DGK, DSX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | 2023 | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı üzrə ixtisaslaşdırılmış müstəntiqlərdən ibarət istintaq qruplarının birgə fəaliyyətinin təmin edilməsi | Hüquq mühafizə orqanları arasında effektiv əməkdaşlığın formalaşdırılması | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinə qarşı mübarizə potensialının gücləndirilməsi |
| 2. | Predikativ cinayətlərin ibtidai araşdırılması zamanı istintaq qruplarının yaradılması təcrübəsinin təşviq edilməsi | DİN, DTX, DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | Mütəmadi | | | |
| 8.3.7. | Tamah məqsədilə törədilən cinayətlər üzrə ibtidai istintaq aparılarkən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əlamətlərinin mövcudluğunun yoxlanılmasına ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorların nəzarətinin effektivliyinin artırılması | Tövsiyə edilir: Baş Prokurorluq | | Mütəmadi | Tamah məqsədilə törədilən cinayətlərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əlamətlərinin aşkar edilməsi məqsədilə təhlillər aparılması | Tamah məqsədilə törədilən cinayətlər üzrə ibtidai istintaq aparılarkən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əlamətlərinin mövcudluğunun yoxlanılmasına ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorların nəzarətinin effektivliyinin artırılması ilə bağlı təkliflər hazırlanması | Əməldə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əlamətlərinin müəyyən edilməsi məqsədilə cinayət işlərinə effektiv prosessual nəzarətin təmin edilməsi |
| 8.3.8. | Hakimlərə, prokurorlara və müstəntiqlərə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin sübut olunmasının spesifik xüsusiyyətlərinə dair təlimlər keçilməsi | ƏN, DVX, DTX, DİN **Tövsiyə edilir:** Baş Prokurorluq, Ali Məhkəmə | MMX | Mütəmadi | | | |
| **8.4. Maliyyə təhlili məlumatları üzrə infrastrukturun inkişafı** | | | | | | | |
| 8.4.1. Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması | | | | | | | |
| 1. | Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün normativ hüquqi əsasların formalaşdırılması | NK | MMX, DVX, ƏN | 2023 | Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | Benefisiar mülkiyyətçilər barədə vahid məlumat bazasının yaradılması məqsədilə qanunvericilikdə dəyişiklik edilməsinə dair təkliflər hazırlanması, məlumatlardan istifadə edə biləcək subyektlər dairəsinin müəyyən edilməsi | Benefisiar mülkiyyətçilər barədə vahid məlumat bazasının yaradılması məqsədilə müvafiq normativ hüquqi aktların qəbul edilməsi |
| 2. | Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasının fəaliyyətinin təmin edilməsi | MMX, DVX | | İyun, 2024 | Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazası üçün infrastrukturun qurulması | Benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş məlumat bazasına çıxış imkanlarının təmin edilməsi | Maliyyə araşdırması, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin və predikativ cinayətlərin istintaqı zamanı benefisiar mülkiyyətçi məlumatlarından effektiv istifadənin təmin edilməsi |
| **8.5. Vergi nəzarətinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi çərçivəsində funksionallığının artırılması** | | | | | | | |
| 8.5.1. Vergi yoxlamaları zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin, habelə predikativ cinayətlərin aşkar edilməsi və araşdırılması üzrə fəaliyyətin gücləndirilməsi | | | | | | | |
| 1. | Vergi yoxlamaları zamanı sahibkarlıq subyektinin apardığı əməliyyatların cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması aspektindən təhlil edilməsi | DVX | | Mütəmadi | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarının araşdırılması üçün vergi yoxlamalarının aparılmasını tənzimləyən əsasların yaradılması | Vergi yoxlamaları zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarının müəyyən edilməsi | Vergi nəzarətinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə effektivliyinin təmin edilməsi |
| 2. | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması şübhələri barədə MMX-nin məlumatlandırılmasının təmin edilməsi | | | Mütəmadi | | | |
| 3. | Hüquqi şəxslərdən istifadə etməklə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin törədilməsinə qarşı mübarizənin gücləndirilməsi, o cümlədən vergidən yayınma ilə bağlı cinayət əməllərinin şel şirkətin formal sahibi tərəfindən törədilməsi müəyyən edildiyi halda faktiki sahibin (benefisiar mülkiyyətçinin) müəyyən edilməsi istiqamətində tədbirlər görülməsi, onun əməlində digər cinayət əlamətlərinin olub-olmamasının ətraflı araşdırılması və cinayət-prossesual qanunvericiliyinə uyğun tədbirlər görülməsi | DVX **Tövsiyə edilir:** Baş Prokurorluq | | Mütəmadi | Hüquqi şəxslərdən istifadə etməklə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməlləri ilə bağlı təhlillərin aparılması | Hüquqi şəxslərdən istifadə etməklə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarına qarşı proaktiv mexanizmin formalaşdırılması ilə bağlı təkliflərin hazırlanması | Hüquqi şəxslərdən istifadə etməklə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarına qarşı proaktiv mexanizmin qurulması |
| 4. | Aldadılaraq adına hüquqi şəxs yaradılmış təsisçilərə məxsus hüquqi şəxslərə dair müraciətlərin uçotu sisteminin qurulması | DVX | | Avqust, 2023 | Aldadılaraq adına hüquqi şəxs yaradılmış təsisçilərə məxsus hüquqi şəxslərə dair müraciətlərin uçotu sisteminin yaradılması məqsədilə təkliflər hazırlanması | Aldadılaraq adına hüquqi şəxs yaradılmış təsisçilərə məxsus hüquqi şəxslərə dair müraciətlərin uçotu sisteminin yaradılması | Aldadılaraq adına hüquqi şəxs yaradılmış təsisçilərə məxsus hüquqi şəxslərə dair müraciətlərin uçotu sisteminin fəaliyyətinin təmin edilməsi |
| 8.5.2. Hesabına dövlət büdcəsi vəsaitinin daxil olduğu sahibkarlıq subyektlərinin və onların subpodratçılarının fəaliyyətinin sistematik auditi, şel şirkətlər və onların benefisiar mülkiyyətçilərinin araşdırılması və qanunvericilikdə müəyyən edilmiş tədbirlərin görülməsi | | | | | | | |
| 1. | Elektron qaimə-fakturalar üzrə təhlillər apararaq hesabına dövlət büdcəsindən vəsait daxil olan sahibkarlıq subyektlərinin müəyyən edilməsi | MMX | DVX | 2023 | Hesabına dövlət büdcəsi vəsaiti daxil olan sahibkarlıq subyektlərinin maliyyə əməliyyatlarının sistemli təhlili | Hesabına dövlət büdcəsi vəsaiti daxil olan sahibkarlıq subyektləri üzrə nəzarətin gücləndirilməsi | Dövlət büdcəsi vəsaiti üzrə sahibkarlıq subyektləri tərəfindən aparılan əməliyyatların şəffaflığının təmin edilməsi |
| 2. | Sahibkarlıq subyektləri üzrə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması risklərinin qiymətləndirməsi üçün birgə tədbirlərin görülməsi və strateji təhlillər aparılması | MMX | DVX | 2023 | | | |
| 3. | Strateji təhlillərin nəticələri üzrə vergi nəzarətinin keçirilməsi | DVX | | 2024 - 2025 | | | |
| 4. | Müəyyən edilmiş cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması halları ilə bağlı hüquq mühafizə orqanlarının məlumatlandırılması | DVX, MMX | | 2023 - 2025 | | | |
| **8.6. Gömrük nəzarəti tədbirlərinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində funksionallığının artırılması** | | | | | | | |
| 8.6.1. Valyuta sərvətlərinin və milli valyutanın gömrük sərhədindən keçirilməsi zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması hallarına qarşı mübarizənin gücləndirilməsi | | | | | | | |
| 1. | Beynəlxalq təcrübə əsasında valyuta sərvətlərinin və milli valyutanın transsərhəd daşınma zamanı yoxlanılmasına əsas verən risk indikatorlarının formalaşdırılması | DGK | | Avqust, 2023 | Gömrük sərhəd buraxılış məntəqələrində valyuta sərvətlərinin və milli valyutanın daşınmasına nəzarət üzrə potensialın gücləndirilməsi | Valyuta sərvətlərinin və milli valyutanın transsərhəd daşınması üzərində risk indikatorları əsasında effektiv monitorinq mexanizminin yaradılması | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məqsədləri üçün valyuta nəzarəti mexanizminin effektivliyinin gücləndirilməsi |
| 2. | Gömrük sərhəd buraxılış məntəqələrinin əməkdaşlarının potensialının gücləndirilməsi üçün təlim planları əsasında nəzəri və praktiki təlimlərin keçilməsi | DGK | | Avqust, 2023-cü ildən etibarən mütəmadi | | | |
| 3. | Valyuta sərvətlərinin bəyan edilməməsinin və ya düzgün bəyan edilməməsinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi cinayətləri və ya predikativ cinayətlərlə əlaqəli olması, yaxud onların müsadirəsi üçün kifayət qədər əsasların mövcudluğunu müəyyən etmək məqsədilə transsərhəd əməliyyatlar üzrə nəticəyönümlü monitorinqlərin həyata keçirilməsi | DGK | | Avqust, 2023-cü ildən etibarən mütəmadi | | | |
| **8.7. Hüquqi şəxslər üzrə şəffaflığın artırılması** | | | | | | | |
| 8.7.1. Kommersiya hüquqi şəxslərindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə potensial sui-istifadə amillərinə dair ətraflı risk qiymətləndirilməsinin aparılması | | | | | | | |
| 1. | Kommersiya hüquqi şəxslərindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə potensial sui-istifadə riskinin başa düşülməsi və məhdudlaşdırılması məqsədilə aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupun formalaşdırılması | DVX, MMX, DİN, DTX **Tövsiyə edilir:** Baş Prokurorluq | | 2023 | Kommersiya hüquqi şəxsləri üzrə risk qiymətləndirilməsi üçün institusional çərçivənin formalaşdırılması | Kommersiya hüquqi şəxsləri üzrə risk qiymətləndirilməsinin həyata keçirilməsi üçün metodoloji əsasların formalaşdırılması | Kommersiya hüquqi şəxslərindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə potensial sui-istifadə riskinin başa düşülməsi və məhdudlaşdırılması |
| 2. | Kommersiya hüquqi şəxslərindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə risklərinin qiymətləndirilməsi üçün zəruri məlumatların toplanması və təhlili, habelə müəyyən edilmiş risklərin aradan qaldırılması istiqamətində tədbirlər görülməsi | | | 2023 | | | |
| 3. | Risk qiymətləndirilməsi nəticələrinin zəruri fəaliyyətin icrası və aidiyyəti dövlət orqanlarına göndərilməsi məqsədilə Koordinasiya Şurasına təqdim edilməsi | | | İllik əsasda | | | |
| 8.7.2. Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri və dini qurumlar üzrə terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi məqsədilə ətraflı risk qiymətləndirilməsinin aparılması | | | | | | | |

*Ardı 10-cu səh.*

*Əvvəli 9-cu səh.*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1. | Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərindən və dini qurumlardan terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə riskinin başa düşülməsi və məhdudlaşdırılması üçün aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupun formalaşdırılması | DQİDK, ƏN, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, MMX | | 2023 | Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri və dini qurumlar üzrə risk qiymətləndirilməsi üçün institusional çərçivənin formalaşdırılması | Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri və dini qurumlar üzrə risk qiymətləndirməsinin həyata keçirilməsi üçün metodoloji əsasların formalaşdırılması | Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri və dini qurumlardan terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə riskinin başa düşülməsi və məhdudlaşdırılması |
| 2. | Qeyri-hökumət təşkilatları və dini qurumlar üzrə terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi üçün zəruri məlumatların toplanması və təhlili, habelə müəyyən edilmiş risklərin aradan qaldırılması məqsədilə tədbirlər görülməsi | | | 2024 | | | |
| 3. | Risk qiymətləndirilməsi nəticələrinin zəruri fəaliyyətin icrası və aidiyyəti dövlət orqanlarına göndərilməsi məqsədilə Koordinasiya Şurasına təqdim edilməsi | | | İllik əsasda | | | |
| 8.7.3. | Avans yolu ilə ödənilmiş valyuta vəsaitləri müqabilində müəyyən edilmiş müddətdə müvafiq mallar idxal olunmadıqda, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə, ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə sahibkarlıq subyektlərinə tətbiq olunmuş sanksiyaların sayı, məbləği və digər zəruri statistik məlumatların ölkə risk qiymətləndirilməsi prosesi çərçivəsində Koordinasiya Şurasına təqdim edilməsi | Tövsiyə edilir: AMB DVX | | Koordinasiya Şurası tərəfindən müəyyənləşdirilmiş müddətdə | İdxal məqsədilə ölkədən xaricə köçürülən valyuta vəsaitləri ilə bağlı sahibkarlıq subyektlərinə və onların əməliyyatlarına dair məlumatların toplanması və təhlil edilməsi | İdxal adı altında pul vəsaitlərini sistematik qaydada ölkədən çıxaran sahibkarlıq subyektlərinin müəyyən edilməsi və monitorinq prosesinə cəlb olunması | Külli miqdarda valyuta vəsaitinin qanunsuz olaraq xaricə köçürülməsi risklərinin məhdudlaşdırılması və bu sahədə effektiv mexanizmlərin yaradılması |
| 8.7.4. Eyni benefisiar mülkiyyətçi ilə əlaqəli olan hüquqi şəxsləri ayırd etməyə imkan verən mexanizmin yaradılması | | | | | | | |
| 1. | IP ünvanlar üzrə məlumatlardan şel və riskli şirkətlərin benefisiar mülkiyyətçilərinin müəyyən edilməsində istifadə | DİN, DTX, DVX, MMX | | Mütəmadi | Eyni benefisiar mülkiyyətçisi olan hüquqi şəxslərin müəyyən edilməsi | Eyni benefisiar mülkiyyətçisi olan hüquqi şəxslərin əməliyyatlarını təhlil mexanizminin formalaşdırılması və monitorinq prosesinə cəlb edilməsi | Korrupsiyaya və digər predikativ cinayətlərə qarşı mübarizə çərçivəsində hüquqi şəxslərlə bağlı şəffaflığın artırılması və potensial sui-istifadə risklərinin məhdudlaşdırılması |
| 2. | Eyni benefisiar mülkiyyətçi ilə əlaqədar sahibkarlıq subyektləri ilə bağlı öhdəlik daşıyan şəxslərdən alınan məlumatların (hüquqi şəxsin benefisiar mülkiyyətçisi və ya hüquqi şəxsin hesabı üzrə sərəncam verən şəxslər və s.), o cümlədən imza nümunələrinə dair məlumatların benefisiar mülkiyyətçilər barədə mərkəzləşdirilmiş məlumat bazasında toplanması və çarpaz təhlillər aparılması | MMX | | Sentyabr, 2023 | | | |
| 3. | Hüquqi şəxslərin dövlət reyestrində toplanmış məlumatlara əsasən (hüquqi şəxsin adı, hüquqi ünvanı, təsisçi, direktor, təsisçi və direktorun ünvanı, əlaqə telefonu və s.) hüquqi şəxslərin eyni benefisiar mülkiyyətçi ilə bağlılığını müəyyən etməyə imkan verən təhlillər aparılması | MMX, DVX | | Avqust, 2023-cü ildən etibarən mütəmadi | Hüquqi şəxslərin dövlət reyestrində yığılan məlumatlar üzrə eyni benefisiar mülkiyyətçisi olan hüquqi şəxslərin müəyyən edilməsi | Eyni benefisiar mülkiyyətçisi olan hüquqi şəxslərin şel şirkət olub-olmamasını müəyyən edən mexanizmin qurulması | Hüquqi şəxslər üzrə şəffaflığın gücləndirilməsi və onlardan sui-istifadə risklərinin məhdudlaşdırılması |
| 4. | Eyni benefisiar mülkiyyətçi ilə bağlılığı aşkar edilmiş hüquqi şəxslər məlumatların müəyyənləşdirilmiş şel şirkətlər əsasında çarpaz yoxlanılması və təhlillər aparılması | MMX, DVX | | Avqust, 2023-cü ildən etibarən mütəmadi | | | |
| 8.7.5. Əsas fəaliyyəti dövriyyə vəsaitlərini nağdlaşdırmaq olan hüquqi şəxslərdən potensial sui-istifadə hallarına dair strateji təhlillər aparılması | | | | | | | |
| 1. | Dövriyyə vəsaitlərinin nağdlaşdırılması yolu ilə sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslərlə bağlı məlumatların toplanılması və qarşılıqlı mübadiləsi mexanizminin yaradılması | MMX, DVX | | Avqust, 2023 | Əsas fəaliyyəti dövriyyə vəsaitlərini nağdlaşdırmaq olan hüquqi şəxslərin müəyyən edilməsi | Əsas fəaliyyəti dövriyyə vəsaitlərini nağdlaşdırmaq olan hüquqi şəxslərin əməliyyatlarının mütəmadi monitorinqi və şübhəli halların aidiyyəti üzrə təqdim edilməsi təcrübəsinin formalaşdırılması | Hüquqi şəxslərlə bağlı şəffaflığın artırılması və onlardan sui-istifadə imkanlarının məhdudlaşdırılması |
| 2. | Əsas fəaliyyəti dövriyyə vəsaitlərini nağdlaşdırmaq olan hüquqi şəxslərlə bağlı təhlillər aparılması və bu hüquqi şəxslərdən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə halları və şübhələri barəsində hüquq mühafizə orqanlarının və MMX-nin məlumatlandırılması | DVX | | Avqust, 2023-cü ildən etibarən mütəmadi | | | |
| **8.8. Ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi** | | | | | | | |
| 8.8.1. Cinayət təqibini həyata keçirən orqanlarla MMX arasında təcrübə mübadiləsinin təkmilləşdirilməsi | | | | | | | |
| 1. | Cinayət təqibini həyata keçirən orqanlarla MMX arasında yaradılan işçi qrup çərçivəsində konkret işlərlə bağlı maliyyə təhlili məlumatlarının mübadiləsi mexanizminin qurulması, habelə cinayət işləri üzrə ibtidai araşdırma prosesində bu məlumatlardan istifadənin effektivliyinin artırılması | **Tövsiyə edilir:** Baş Prokurorluq<br>DTX, DİN, DGK, DSX, DVX, MMX | | Mütəmadi | Koordinasiya Şurası tərkibində maliyyə təhlili məlumatlarının mübadiləsi üçün operativ mexanizmlərin yaradılması | MMX-nin cinayət təqibini həyata keçirən orqanlara təqdim etdiyi məlumatlardan effektiv istifadənin təmin edilməsi | Cinayət təqibini həyata keçirən orqanlarla və MMX arasında effektiv təcrübə və məlumat mübadiləsinin təmin edilməsi |
| 2. | Cinayət təqibini həyata keçirən orqanlar və MMX tərəfindən hazırlanan tipologiyaların, digər strateji təhlil məhsullarının və təcrübənin müzakirəsi, eləcə də mübadiləsi | | | Mütəmadi | | | |
| 8.8.2. | MMX və ona məlumat təqdim edən dövlət orqanlarının (qurumların) nümayəndələrindən ibarət xüsusiləşdirilmiş əməkdaşlıq çərçivələrinin yaradılması | DQİDK, ƏN, DGK, DVX, MMX<br>**Tövsiyə edilir:** AMB, VK, AP | | 2023 | MMX ilə aidiyyəti qurumlar arasında müntəzəm və effektiv məlumat mübadiləsi mexanizminin yaradılması | MMX tərəfindən təhlil edilən məlumatların keyfiyyətinin artırılması və onlardan effektiv istifadənin təmin edilməsi | Aidiyyəti qurumlar və MMX arasında effektiv əməkdaşlığın təmin edilməsi |
| 8.8.3. Qarşılıqlı hüquqi yardım mexanizminin təkmilləşdirilməsi | | | | | | | |
| 1. | Qarşılıqlı hüquqi yardımla bağlı beynəlxalq sorğuların idarə edilməsi, prioritetləşdirilməsi və geriyə məlumatlandırma mexanizminin təkmilləşdirilməsi | ƏN, DİN, DTX, DVX Tövsiyə edilir: Baş Prokurorluq | MMX | 2023 | Qarşılıqlı hüquqi yardımla bağlı beynəlxalq sorğuların prioritetlik dərəcəsinin və idarə olunması standartlarının müəyyən edilməsi | Transsərhəd elementlərə malik cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin istintaqı sahəsində qarşılıqlı hüquqi yardım sorğularından istifadə təcrübəsinin genişləndirilməsi | Qarşılıqlı hüquqi yardımla bağlı beynəlxalq sorğuların cavablandırılması və ya göndərilməsi zamanı effektivliyin yüksəldilməsi |
| 2. | Hüquq mühafizə orqanları tərəfindən ölkə risklərinə uyğun olaraq transsərhəd elementlərə malik cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin istintaqı zamanı qarşılıqlı hüquqi yardım imkanlarından istifadənin intensivliyinin artırılması | | | Mütəmadi | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.9. Ölkə risk qiymətləndirilməsi üzrə institusional çərçivənin formalaşdırılması** | | | | | | | |
| 8.9.1. Cinayət işləri üzrə statistik bazanın təkmilləşdirilməsi üçün infrastrukturun qurulması | | | | | | | |
| 1. | Cinayət işləri üzrə statistik bazada toplanılacaq məlumatların əhatə dairəsinin müəyyən edilməsi | DİN, DTX, ƏN, DGK, DSX, DVX<br>**Tövsiyə edilir:** Baş Prokurorluq, Ali Məhkəmə | | 2023 | Mövcud statistik baza üzrə çatışmazlıqların və onun beynəlxalq standartlara uyğunluğunun təhlili | Beynəlxalq standartlara uyğun olaraq toplanılmalı zəruri məlumatların əhatə dairəsinin müəyyənləşdirilməsi | Cinayət işinin başlandığı vaxtdan iş üzrə yekun qərarın qəbul edildiyi vaxtadək onun izlənilməsinə imkan verən sistemli və əhatəli məlumat bazasının formalaşdırılması |
| 2. | Cinayət işləri üzrə statistik bazanın qanunvericilik əsaslarının müəyyən edilməsi | NK | DİN, DTX, ƏN, DGK, DSX, DVX, DSK, MMX<br>**Tövsiyə edilir:** Baş Prokurorluq, Ali Məhkəmə | 2024 | | | |
| 3. | Cinayət işləri üzrə statistik bazanın formalaşdırılması üçün infrastrukturun qurulması | DİN, DTX, ƏN, DGK, DSX, DVX Tövsiyə edilir: Baş Prokurorluq, Ali Məhkəmə | | 2025 | | | |
| 8.9.2. MMX tərəfindən strateji təhlillərin nəticələrinin davamlı şəkildə açıqlanması | | | | | | | |
| 1. | MMX tərəfindən hüquq mühafizə orqanlarına təqdim edilən məlumatlar əsasında tipologiyaların hazırlanması və dərc edilməsi | MMX | | Mütəmadi | MMX-yə təqdim edilmiş məlumatların təhlili və ümumiləşdirilməsi | Müxtəlif istiqamətlər üzrə strateji təhlil məhsullarının hazırlanması | Əsas təhdid doğuran cinayətlər və onların törədilməsi üsulları barədə öhdəlik daşıyan şəxslərin, nəzarət və hüquq mühafizə orqanlanın məlumatlandırılması |
| 2. | MMX-nin taktiki təhlil fəaliyyətinin ümumiləşdirilməsi əsasında hazırlanan və sahəvi trendləri əks etdirən strateji təhlil məhsullarının hazırlanması və öhdəlik daşıyan şəxslərə, nəzarət və hüquq mühafizə orqanlarına göndərilməsi | | | | | | |
| 3. | Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində əsas təhdid doğuran predikativ cinayət növləri üzrə strateji təhlillər aparılması və nəticələrinin MMX, hüquq mühafizə və nəzarət orqanlarına göndərilməsi, eləcə də onların qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq tədbirlər planının hazırlanması | DİN, DTX, DGK, DSX, DVX<br>**Tövsiyə edilir:** Baş Prokurorluq | | Mütəmadi | Hüquq mühafizə orqanları tərəfindən müvafiq təhdidlərin qiymətləndirilməsi metodologiyasının müəyyən edilməsi | Qiymətləndirmə aparılması və nəticələri barədə aidiyyəti qurumların məlumatlandırılması | Qiymətləndirmə nəticələrinə uyğun olaraq tədbirlər planının hazırlanması |
| **8.10. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində institusional mühitin inkişafı** | | | | | | | |
| 8.10.1. Kölgə iqtisadiyyatının azaldılması məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi | | | | | | | |
| 1. | Kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi | İN | | 2023 | Kölgə iqtisadiyyatının qiymətləndirilməsi üçün məlumatların toplanması | Kölgə iqtisadiyyatının qiymətləndirilməsi məqsədilə təhlillər aparılması | Müvafiq təhlillər əsasında kölgə iqtisadiyyatının azaldılması üçün təkliflər hazırlanması |
| 2. | Əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) sisteminin tətbiqi mexanizminin formalaşdırılması | DVX, DGK | | 2023 - 2025 | Əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) sisteminin tətbiqi üzrə beynəlxalq təcrübənin araşdırılması və təkliflər hazırlanması | Əmtəənin qlobal identifikasiya nömrəsi (GTIN) sisteminin tətbiqi sahəsində infrastrukturun formalaşdırılması | Qaçaqmalçılıq risklərinin azaldılması, şəffaf vergi və gömrük nəzarətinin təmin edilməsi |
| 8.10.2. Virtual aktivlər və virtual aktiv xidməti təminatçıları üzərində nəzarət və tənzimləmə mexanizminin qurulması | | | | | | | |
| 1. | Virtual aktivlər və virtual aktiv xidməti təminatçılarının tənzimlənməsi ilə bağlı tədbirlər görülməsi | **Tövsiyə edilir:** AMB | MMX | 2024 | Virtual aktivlərin və virtual aktiv xidməti təminatçılarının fəaliyyətinin tənzimlənməsinə dair qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | FATF tövsiyələri nəzərə alınmaqla normativ bazanın formalaşdırılması | Virtual aktiv xidməti təminatçılarının və virtual aktivlər bazarının effektiv monitorinqə cəlb edilməsi |
| 2. | Virtual aktiv xidməti təminatçılarının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı monitorinqə cəlb edilməsi infrastrukturunun qurulması | **Tövsiyə edilir:** AMB | MMX | 2025 | | | |
| **8.11. Terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə** | | | | | | | |
| 8.11.1. Terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizənin effektivliyinin artırılması, tətbiq olunan mübarizə tədbirlərinin bu sahələrin maliyyələşdirilməsi risklərinə uyğunluğunun təmin edilməsi | | | | | | | |
| 1. | Qanunsuz pulköçürmə sistemlərinə qarşı effektiv mübarizə mexanizmlərinin formalaşdırılması | DİN, DTX, DVX | | Mart - avqust, 2023 | Terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı strategiyanın hazırlanması üçün işçi qrup yaradılması və effektiv mübarizə mexanizminə dair qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə üzrə strategiyaya dair təkliflər hazırlanması | Terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulmasına, həbsinə və müsadirəsinə dair hüquqi və metodoloji bazanın hazırlanması, tətbiqi, eləcə də ona nəzarətin təmin edilməsi |
| 2. | Hədəfli maliyyə sanksiyaları tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və dolayı yolla Azərbaycan Respublikasında mövcud olan aktivlərə çıxış imkanlarının araşdırılması və həmin aktivlərin dondurulması üzrə tədbirlərin (o cümlədən beynəlxalq əməkdaşlıq çərçivəsində müvafiq tədbirlərin) həyata keçirilməsi | DİN, DTX, DVX, MMX | | 2023 - 2025 | | | |
| 3. | Hədəfli maliyyə sanksiyaları tətbiq edilməli fiziki şəxslərin və qurumların aktivlərinin öhdəlik daşıyan şəxslər tərəfindən dondurulmasına dair metodoloji sənədlərin hazırlanması və maarifləndirici tədbirlərin həyata keçirilməsi | MMX | | 2023 - 2025 | | | |
| 8.11.2. | Yüksək riskli zonalarla ticarət şəbəkələrində qeyri-formal maliyyə əməliyyatları üzərində nəzarətin təmin edilməsi | DİN, DTX, DGK, DSX | MMX | 2023 - 2025 | Yüksək riskli zonalarla qeyri-formal maliyyə əməliyyatlarının monitorinqi sahəsində beynəlxalq təcrübənin araşdırılması | Qeyri-formal maliyyə əməliyyatlarının monitorinqi sahəsində infrastrukturun formalaşdırılması | Qeyri-formal maliyyə əməliyyatları üzərində monitorinq və nəzarət mexanizminin qurulması |
| 8.11.3. | Dini qurumların fəaliyyətində maliyyə şəffaflığının təmin edilməsi, dini qurumlar üçün sistematik hədəfli maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | DQİDK | | Mütəmadi | Dini qurumların maliyyə fəaliyyətinin və əməliyyatlarının təhlil edilməsi, habelə məlumatların vahid bazada toplanması | Dini qurumlara münasibətdə terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mütəmadi təlimlər keçirilməsi | Dini qurumların hesabatlılığının və maliyyə şəffaflığının gücləndirilməsinə nail olunması |

AKRONİMLƏR

- ABA - Azərbaycan Banklar Assosiasiyası
- AFBİA - Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası
- AMB - Azərbaycan Respublikasının Mərkəzi Bankı
- ANP - Azərbaycan Notariat Palatası
- AP - Azərbaycan Respublikasının Auditorlar Palatası
- ASA - Azərbaycan Sığortaçılar Assosiasiyası
- DGK - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
- DİN - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
- DQİDK - Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
- DSX - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
- DSK - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
- DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
- DVX - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti
- ƏN - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
- İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
- MMX - Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
- NK - Azərbaycan Respublikasının Nazirlər Kabineti
- VK - Azərbaycan Respublikasının Vəkillər Kollegiyası
- XKX - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti

## Bir yumruq, bir ürək, bir can

# Azərbaycan könüllüləri Türkiyədə on minlərlə zərərçəkənə xidmət göstəriblər






Türkiyənin cənub-şərqində baş verən və genişmiqyaslı dağıntılar, çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında olaraq təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına dəstək verir.

Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, türk xalqına yardım məqsədilə Azərbaycan gəncləri də könüllü kimi zəlzələ bölgəsində fəaliyyətini davam etdirirlər.

Artıq üçüncü həftədir ki, fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatya bölgələrindəki çadır şəhərciklərində könüllü kimi çalışan azərbaycanlı gənclər on minlərlə zərərçəkmiş şəxsə xidmət edir, eləcə də zəlzələ bölgələrindəki müxtəlif məntəqələrdə qida, geyim, dərman, gigiyenik vasitələr və müxtəlif yardımların boşaldılması, çeşidlənməsi, paylanmasını həyata keçirir, yerli əhaliyə səyyar şəkildə su və isti içkilər paylayır və digər dəstəkverici xidmətləri göstərirlər. Həmçinin könüllü gənclərimiz çörəkbişirmə və paylama məntəqəsində fəaliyyətə başlayıb, habelə ucqar kəndlərə səfər edərək humanitar fəaliyyətlərin həyata keçirilməsində fəal şəkildə iştirak ediblər.



Xüsusi vurğulamaq lazımdır ki, zəlzələ bölgəsindəki uşaqların sevimlisinə çevrilən Azərbaycan könüllüləri ötən həftə də bu bölgələrdə yaşayan həssas vəziyyətdəki minlərlə uşağa xidmət ediblər. Belə ki, könüllülərimiz zərərçəkmiş uşaqların reabilitasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi çadırlar quraşdırıb, habelə təbii fəlakət zamanı keçirdikləri sarsıntıları, yaşadıqları travmaları minimuma endirmək üçün hər gün yüzlərlə uşağa qayğı və psixoloji dəstək xidməti göstərib, eləcə də uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə müxtəlif oyunlar və digər əyləncəli-maarifləndirici fəaliyyətlər təşkil ediblər. Həmçinin gənclərimiz tərəfindən "uşaq və ana mərkəzi" kimi fəaliyyət göstərən çadırlar qurulub və bu mərkəzdə uşaqlara kino və cizgi filmlərinin göstərilməsi üçün də şərait yaradılıb.

# Müdafiə Nazirliyinin hərbi tibb personalı Vətənə qayıdıb

### Tibb heyəti tərəfindən qardaş ölkədə ümumilikdə 81 cərrahi əməliyyat icra edilib, 517 nəfərə isə ambulator yardım göstərilib

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyəyə ezam olunan Azərbaycan Ordusunun hərbi tibb personalı Kahramanmaraşda fəaliyyətini başa vuraraq Vətənə qayıdıb.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Hərbi həkimlərimiz Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərib.

Tibb heyətimiz tərəfindən qardaş ölkədə ümumilikdə 81 cərrahi əməliyyat icra edilib, 517 nəfərə isə ambulator yardım göstərilib.

Qeyd edək ki, ümumi cərrah, travmatoloq, LOR cərrah, oftalmoloq, neyrocərrah, revmatoloq, anestezioloq, plastik-rekonstruktiv cərrah, feldşer, əməliyyat tibb bacıları və anestezistlər olmaqla, Azərbaycan Ordusunun 20 nəfərlik hərbi tibb personalının fəaliyyəti Türkiyədə yüksək qiymətləndirilib.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Laçın-Xankəndi yolu: Ekoaksiya 80 gündür davam edir

Azərbaycanlı könüllü gənclərin və ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası artıq 80 gündür davam edir.

Ekofəallar hər gün olduğu kimi, bu səhər də Dövlət himnini səsləndiriblər. Aksiya iştirakçıları yüksək əhvali-ruhiyyədədirlər. Onların məramı əvvəlki kimi dəyişməz olaraq qalır. Etirazçılar Azərbaycan tərəfinin haqlı tələblərinin yerinə yetirilməsini istəyir, Qarabağ ərazisində Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə qarşı olduqlarını bildirirlər. Aksiya iştirakçıları qaldırdıqları plakatlarda üzərində rus və ingilis dillərində yazılmış "Sərvətlərimizin talanı dayansın!", "Təbiəti qoruyaq, istismarı qınayaq!", "Təbiətin milləti yoxdur!", "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Sərvətimiz bölünməz, heç bir kəsə verilməz!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.





Laçın-Xankəndi yolu humanitar məqsədlər üçün açıqdır, sərbəst hərəkətə heç bir maneə yoxdur. Hadisə yerində olan xarici jurnalistlər də bunun bir daha şahidi olublar.

* * *

Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir.

Sülhməramlılara məxsus 4 avtomobilin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

* * *

Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın dünənki günündə də Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.

Sülhməramlılara məxsus 16 avtomobilin Xankəndidən Laçına, 6 avtomobilin isə Laçından Xankəndiyə sərbəst hərəkəti təmin edilib. Gün ərzində indiyədək aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 33, BQXK-nin isə 4 avtomobili keçib.

* * *

Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus dörd minik avtomobili ərazidən maneəsiz keçib.

*AZƏRTAC*

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İrana qarşı sanksiyalar genişləndirildi

Təhdid, terror, ədalətsizlik, insanlara işgəncə vermək İran rejiminin ölkə daxilində həyata keçirdiyi siyasətində başlıca yer tutur. Buna görə də altı ay əvvəl başlayan etiraz aksiyaları nəinki səngimir, əksinə, getdikcə İranın daha çox bölgəsini əhatə edir. Cəza tədbirlərini sərtləşdirsə belə Tehran hökuməti məqsədinə çata bilmir. İllərdir ki, fars-molla rejiminin əsarəti altında yaşamaqdan, əzab-əziyyət çəkməkdən cana doymuş insanların etiraz səsini boğmaq, onları yenə də əvvəlki kimi, təşviş, qorxu altında saxlamaq, hədələrlə, cəzalar verməklə idarə etmək mümkünsüz görünür.



### Qazdığı quyuya özü düşən molla rejimi

Din, islam, müsəlmanlıq adları altında imansız əməllər törədən molla rejiminin iç üzü açılıb. Yalanlarına, riyakarlıqlarına nə ölkənin daxilində, nə də xaricində inanan var. Ölkədə rejimə qarşı etirazlar gücləndikcə Tehran hökumətinin sanki qulaqları kar olur, haqlı tələbləri eşidib nəticə çıxarmır. Əvəzində yenə qanlı hadisələr törədir. Günahsız ola-ola həbsxanalara salınanların, verilən cəza və işgəncələr ucbatından sağlamlığını, həyatını itirənlərin sayı artır.

Molla rejimi, necə deyərlər, qazdığı quyuya özü düşüb. Bir tərəfdən ölkə daxilində gündəngünə daha da alovlanan iğtişaşlar, digər tərəfdən də beynəlxalq aləmin qınaqları və sanksiyalar məngənəsi Tehran hökumətinin vəziyyətini getdikcə daha da ağırlaşdırır. Qeyd edək ki, sanksiyalar müxtəlif səbəblərlə əlaqələndirilir. Belə ki, İranda insan haqlarının, ifadə azadlığının məhdudlaşdırıldığı beynəlxalq səviyyədə dəfələrlə gündəmə gətirilib. Eyni zamanda İran uzun müddətdir ki, nüvə fəaliyyətinə görə də Qərb ölkələrinin genişmiqyaslı sanksiyaları ilə qarşılaşıb. ABŞ İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid hesab edib.

İrandan Rusiyaya son vaxtlar müxtəlif növ silahların, həmçinin pilotsuz uçuş aparatlarının, kamikadze dronlarının satılmasını təsdiqləyən faktlar da İranı Qərbin sanksiyaları ilə üzləşdirib.

Fars-molla rejiminin qanunsuz, cinayətkar əməllərindən əl çəkməməsi vəziyyəti mürəkkəbləşdirir. İrana qarşı beynəlxalq miqyasda kəskin etirazlar doğurur, ciddi tənqidlərə səbəb olur.

Bu ilin əvvəlindən insan hüquqlarını pozduğuna görə, Avropa İttifaqı tərəfindən İran İslam İnqilabı Keşikçiləri Korpusuna (SEPAH) sanksiyalar tətbiq olunub. Məlumata görə, "qara siyahı"ya eləcə də İrana bağlı fiziki və hüquqi şəxslər, həmçinin idman və gənclər naziri Seyid Həmid Hazaveh Səccadi, asayişin təmin edilməsi qərargahının rəhbəri Seyid Mohammed Saleh Haşimi Qolpayeqani, Sənəndəcin (Kürdüstan əyaləti) başçısı Həsən Əsgəri, İran hüquq-mühafizə qüvvələri, həmçinin "Radis Vira Tejarat Co." şirkəti daxil edilib.

Bu ilin fevral ayında İran İslam Respublikasına qarşı sanksiyalar daha da artırılıb. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin yaydığı məlumatdan da bəlli olub ki, həmin ölkə İrana qarşı sanksiyaları genişləndirir. Açıqlanıb ki, ABŞ Maliyyə Nazirliyinin sanksiyaları İranın neft-kimya və neft məhsulları ticarəti ilə məşğul olan doqquz şirkətinə tətbiq edilib. Sanksiyalar tətbiq olunan, neft-kimya məhsullarının satışı və paylanması ilə məşğul olan şirkətlərdən 6-sı İrana məxsusdur.

Maliyyə Nazirliyindən məlumat verilib ki, İranın neft-kimya şirkətləri ilə yanaşı, bu şirkətlərin məhsullarını Şərqi Asiyadakı müştərilərə satmaqda vasitəçilik edən Sinqapurdakı iki şirkətə və Malayziyadakı bir şirkətə də sanksiya tətbiq edilib.

### İran İnqilabı Keşikçiləri Korpusunun "terror təşkilatları siyahısı"na salınması tələb edilir

Bu ilin fevral ayında Avropa İttifaqı xarici işlər nazirləri tərəfindən İranda Məhsa Əminin ölümündən sonra başlayan nümayişlərə müdaxilələr və nümayişçilərə verilən edam hökmləri səbəbindən bu ölkəyə qarşı beşinci sanksiya paketi qəbul olundu. Buna görə Aİ ölkələri İranın irşad və mədəniyyət naziri Məhəmməd Mehdi İsmaili və təhsil naziri Yusuf Nuri də daxil olmaqla, 32 şəxs və 2 təşkilata sanksiya tətbiq edəcəyini bildirdi.

Sanksiyalara siyahıda olanların aktivlərinin dondurulması, onların Aİ ölkələrinə səfərlərinin qadağan edilməsi, bu şəxslər və təşkilatların maliyyələşdirilməsinin qarşısının alınması daxildir.

Siyahıya iki nazirlə yanaşı, bəzi deputatlar, polis qüvvələri və ədliyyə orqanlarının üzvləri, bəzi həbsxanaların məsul şəxsləri, İran İnqilabı Keşikçiləri Korpusu, Hüquq Mühafizəsinə Yardım Fondu və Polis İnstitutunun Elm və Sosial Tədqiqatlar İnstitutunun rəsmiləri də salınıb.

Son qərarla İrana qarşı sanksiya siyahısında olan şəxslərin sayı 196-ya, təşkilatların sayı isə 33-ə yüksəlib.

Avropa İttifaqı Xarici İşlər Nazirləri Toplantısının davam etdiyi ərəfədə Belçikanın paytaxtı Brüsseldə bir çox Avropa ölkəsindən olan iranlı müxaliflər nümayiş keçirib. Şimal vağzalına toplaşan minlərlə insan Aİ qurumlarının yerləşdiyi Şuman meydanına doğru yürüş edib. İranda Məhsa Əminin ölümündən sonra başlayan nümayişlərə müdaxiləyə və etirazçılara verilən cəzalara qarşı çıxan nümayişçilər Aİ-dən İran İnqilabı Keşikçiləri Korpusunun "terror təşkilatları siyahısı"na salınmasını tələb ediblər.

Bu günlərdə Avropa İttifaqı İrana qarşı tətbiq etdiyi yeni sanksiyalar paketini açıqladı. Belə ki, İranın 121 fiziki və hüquqi şəxsinin adı sanksiyalar siyahısına əlavə olundu. Onlar İranda pilotsuz uçuş aparatları (PUA) istehsal edən şirkət və dövlət müəssisələri ilə əlaqəli şəxslərdir.

Məlumatda Ukraynada davam edən hərbi əməliyyatları daha da qızışdıraraq Rusiyaya PUA verdiyi üçün İrana qarşı daha sərt sanksiyalar tətbiq ediləcəyi qeyd olunub. Diqqətə çatdıraq ki, sanksiyalar siyahısına adı salınan şəxslərin Avropa ölkələrinin ərazisinə girişi qadağan olunub. Onların Avropa banklarındakı maliyyə aktivləri dondurulub.

Xatırladaq ki, İranın paytaxtı Tehranda "əxlaq polisi" kimi tanınan İrşad patrulları ötən il sentyabrın 16-da iyirmi iki yaşlı Məhsa Əmininin ölümünə səbəb olublar. Gənc qızın qətlindən sonra sentyabrın 17-də doğulduğu Saqqızda başlayan nümayişlər bütün ölkəyə yayılıb, hökumət əleyhinə etirazlara çevrilib. Həmin nümayişlərə təhlükəsizlik qüvvələrinin müdaxiləsi nəticəsində yüzlərlə insan həyatını itirib, minlərlə etirazçı isə həbs olunub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında İnformasiya təhlükəsizliyinin qiymətləndirilməsi üzrə müdaxilə sınağının keçirilməsi ilə bağlı tender Satınalmalar komissiyasının 24 fevral 2023-cü il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### Struktur idarələrinə rezin təbəqələr və paranitlərin satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 9 mart 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***




AZƏRBAYCAN
Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsini ziyarət edib
Rusiya dostumuz, müttəfiqimiz və qonşumuz kimi...
İslam İnkişaf Bankı ilə çox uğurlu və səmərəli əməkdaşlıq həyata keçirilir
Azərbaycan Cənubi Qafqazda sabitliyin təmin olunmasında mühüm rola malikdir

## OXUCULARIN NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Xarici sərmayədarlar Ermənistanı tərk edirlər

Ermənistanda postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum bu ölkədə əhalinin yaşayış səviyyəsinin sürətlə pisləşməkdə olduğunu göstərir.

"İravnuk" qəzeti yazır ki, istənilən ölkədə sənayenin bərpası ilk olaraq ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır. Amma banklar da inamsızlıq səbəbindən "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son iki ildə ölkə sənayesinə kredit qoyuluşu 35 milyon dollar azalıb. Belə halda iqtisadiyyatın rəqabətə davamlılıq reytinqi də aşağı düşməkdədir.

Belə acınacaqlı vəziyyətdə Anna Akopyanın Nikol Paşinyanla birgə paylaşdığı fotolar erməni cəmiyyətində ciddi qıcıq yaradıb. Dünən məşhur "Hraparak" nəşri baş nazirin xalqa özünü sadə görkəmdə təqdim etməsi ilə bağlı maraqlı yazı dərc edib. Nəşr yazıb ki, əslində, hər şey heç də göründüyü kimi deyil: "Bazar günü baş nazir Nikol Paşinyan həyat yoldaşı və oğlu ilə birgə rusların məşhur "Peraşki"sini, qarğıdalı və omlet yemək üçün Gümrüyə gedib. Həmin gün onlar Lori və Tavuşda da olub, orada kartof qızardıb yeyiblər. Belə gözlənilməz səfərin məqsədi ilə bağlı heç bir məlumat verilməyib. Hətta Anna Akopyan özü bu fotolarla bağlı belə bir qeyd paylaşdı: "Biz nəinki müxtəlif şəhərləri gəzir, həm də piroq və qarğıdalıdan həzz alır, alış-veriş edir, kafelərə gedirik və s. Sadəcə olaraq, siz bizi həmişə görmür, sezmirsiniz".

Müəllif yazır ki, baş nazirləri sosial cəhətdən müdafiəsiz və kasıb bir dərviş görkəmində olsa da, əslində, Paşinyan Ermənistan futbol yığmasının da istifadə etdiyi, qiyməti 57 min dram olan qış formasını geyinib: "Bundan başqa, Paşinyan "AW 1096 A.2" markalı, qiyməti 120 min dram olan mexaniki saat taxıb. Paşinyan demək olar ki, həmişə bu markanın saatlarından və hər dəfə də müxtəlif modellərdən istifadə edib. Yəni Paşinyanın kolleksiyasında başqa saatlar da var. Baş nazirin 1 milyon 580 min dram maaş aldığını nəzərə alsaq, qeyd etmək lazımdır ki, o, feysbuk istifadəçilərinin düşündüyü kimi, "bomj" şəklində geyinib gəzmir".

Nikol Paşinyanın ölkədə "qurman tur"una çıxması deputatlar arasında da narazılıq yaradıb. Parlamentin "Hayastan" fraksiyasından olan deputatı Artur Xaçatryan deyib ki, region tam sürətlə qaynayır. Putin və Ərdoğan ötən həftə iki dəfə, fevralın 24-də və 26-da telefonla danışıblar: "Azərbaycan Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyəyə səfər edib. Lavrov ikigünlük tam proqramla Bakıya gedib. İran Prezidenti Rəisinin Moskvaya səfəri gözlənilir. Bizim baş nazir Nikol Paşinyan isə dünən qarğıdalı yemək üçün hansısa rayona gedib".

Erməni politoloq Alen Gevondyan deyib ki, Paşinyanın sayəsində Ermənistan region dövlətlərinə qarşı alətə çevrilib və bu, gələcək üçün daha pis proqnozlara əsas verir. Çünki Ermənistan həm siyasi, həm də ola bilsin ərazi baxımından qonşu dövlətlər arasında bölünəcək. Bu da onların milli təhlükəsizliyinin maraqları ilə müəyyən ediləcək. O qeyd edib ki, Qərb təxribat törədəcək və təbii ki, uğursuzluğa düçar olub, kənara çəkiləcək. Bundan sonra erməni siyasiləri ənənəyə uyğun olaraq, düşüncə orqanının beyin olduğunu unudub taleyi söyməyə başlayacaqlar. Onlar yenə də anlamayacaqlar ki, beyindən maksimalizm çərçivəsində deyil, realizm çərçivəsində istifadə etmək lazımdır: "Güman edirəm ki, Ermənistanın bəzi rayonları hansısa ölkə ilə birgə idarəyə keçəcək. Bundan əlavə, Ermənistanda ən azı daha bir xarici silahlı kontingent yerləşdiriləcək. Paşinyan ruslarla qarşıdurmanı davam etdirmək üçün Qərbi ölkəmizə dəvət edəndə Ermənistandan heç nə qalmayacağı aydın idi".

Qeyd edilənlər Ermənistanın üzləşdiyi böhranların daha da dərinləşəcəyindən xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Martın ilk günündə ölkə ərazisində yaz havası müşahidə olunacaq

Azərbaycanda martın 1-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə arabir duman olacaq. Cənub küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-7°, gündüz 9-14° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında əsasən yağmursuz hava şəraiti gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 17-22° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° isti, bəzi yerlərdə 5°-dək şaxta, gündüz 14-19° isti olacaq.




Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, bəzi yerlərdə 3°-dək şaxta, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır. Gecə dağlıq ərazilərdə yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti, yüksək dağlıq ərazilərdə gecə 5°-dək şaxta, gündüz 2°-dək şaxta olacağı bildirilir. Gecə dağlıq ərazilərdə yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə havanın yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 16-21° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru dağlıq ərazilərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 15-20° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 9-14° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 17-22° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 13-18° isti, dağlarda gecə 4-7°, gündüz 14-17° isti olacağı gözlənilir.

# Gizli mərəz

## Dünyada vərəmə yoluxma artıb

Əsasən ağciyərləri zədələyən vərəm bu gün də dünyanın ən təhlükəli infeksion xəstəliklərindən biri olaraq qalır. Xəstəliyi törədən bakteriya öskürmə və ya asqırma zamanı ayrılan kiçikölçülü damcılar vasitəsilə bir insandan digərinə keçir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, dünyada il ərzində 9 milyondan artıq insan vərəm xəstəliyinə yoluxur, 1 milyon 800 min insan isə bu xəstəlikdən vəfat edir. Ümumiyyətlə isə, statistika göstərir ki, vərəmə yoluxma dünyada artan tendensiya ilə davam edir.

### Ölkəmizdə vərəmin müalicəsində yeniliklər tətbiq edilir

Bəs görəsən Azərbaycanda bununla bağlı vəziyyət nə yerdədir? Araşdırma aparanda məlum oldu ki, ölkəmizdə vərəmə nəzarət üzrə cavabdehlik 2020-ci ildən etibarən TƏBİB-in səlahiyyətindədir. Son illər Azərbaycanda vərəmlə mübarizə sahəsində ÜST-nin tövsiyələrinə uyğun olaraq, yeni yanaşmalar və texnologiyalarla bağlı bir çox dəyişiklik baş verib. Belə ki, bu xəstəliklə mübarizə tədbirlərinin gücləndirilməsi və vərəm yükünün azaldılması üçün elmi dəlillərə əsaslanan yeni yanaşmalar tətbiq edilir.

Bakı və Sumqayıt şəhərlərində, Abşeron və Xızı rayonlarında yaşayan əhaliyə vərəm əleyhinə göstərilən yardımın yaxşılaşdırılması məqsədilə dərmanlara həssas vərəmli xəstələrin müalicəsi üçün vərəm əleyhinə dispanserlərin yalnız ambulator poliklinik fəaliyyətlə məşğul olması, stasionar yardımın isə yeni yaradılmış Saray Modul tipli Vərəm Xəstəxanasında aparılması təşkil edilib. Dərmanlara davamlı vərəm ştamları ilə yoluxmuş xəstələrin müalicəsi xüsusiləşdirilmiş vərəm əleyhinə xəstəxanalarda aparılır. Hazırda ölkəmizdə müalicə üçün müvafiq şərait, xüsusən də vərəmin bütün formaları daxil olmaqla, keyfiyyətli müalicəyə çıxış mövcuddur.

### Xəstəliyin klinik formaları özünü müxtəlif formalarda büruzə verir

İlkin Səhiyyə və Təcili Yardım Departamentinin şöbə müdiri Nəhmət Rəhmanov deyir ki, son illərdə bütün dünyada olduğu kimi, Azərbaycanda da vərəmlə mübarizə sahəsində əldə olunmuş sabitləşməyə baxmayaraq, bu xəstəlik vacib səhiyyə problemlərindən biri olaraq qalmaqdadır: "Son bir neçə il ərzində bəzi göstəricilər üzrə irəliləyiş əldə etmək mümkün olsa da, hələ də həll olunmamış kifayət qədər məsələ var. Əhalinin müasir və sürətli diaqnostika metodlarına çıxışının yaxşılaşdırılması və doğru zamanda aparılan adekvat müalicə nəticəsində son illərdə ölkədə vərəmlə bağlı stabil epidemioloji vəziyyət müşahidə edilir. Əhalinin 100 min nəfərinə düşən yeni vərəm hallarının və residivlərinin qeydiyyat göstəriciləri 2015-2022-ci illər ərzində artmamışdır".

N.Rəhmanov bildirir ki, xroniki infeksion xəstəlik olan vərəmə əsasən əmək qabiliyyətli insanlar yoluxurlar: "Vərəm infeksiyasının törədiciləri kox çöpləri adlanır. Bu çöplər əsasən insan orqanizimindən kənar uzun müddət avtonom yaşamaq qabiliyyətinə malikdir, orqanizmə daxil olduqda müxtəlif orqan və toxumaları zədələyir. Ona görə də xəstəliyin klinik formaları və təzahürləri müxtəlif formalarda özünü büruzə verir. Əsasən birincili və ikincili vərəm formaları mövcuddur. Birincili vərəm infeksiyanın ocaq əmələ gətirməsi ilə başlayır ki, bu forma lokal vərəm də adlandırılır. Uşaq və yeniyetmələrdə Qon ocaqlar adlanan patoloji dəyişikliklərin başlaması ilə baş verir. İkincili vərəm isə əsasən pulmionar (ağciyər) və ekstra pulmonar (ağciyərdənkənar) formalarda olur".

### Natamam müalicə vərəmi sağalmaz edə bilər

Vərəmə yoluxma və xəstələnmənin özlüyündə ayrı-ayrı terminlər olduğunu vurğulayan N.Rəhmanov deyir ki, yoluxmanın risk faktorları təmas müddəti, havada vərəm törədicilərinin sıxlığı, yəni şərait, sonunda isə insan orqanizminin müqavimət qabiliyyəti, immun sisteminin vəziyyətidir. Yoluxan insanların təxminən bir faizi xəstələnə bilir. Xəstələnmənin də tibbi və sosial risk faktorları mövcuddur. Vərəmdən qorunmağın əsas yolu sadalanan bu risk faktorlarından qorunmaqdır.

Həkim qeyd edir ki, özündə xəstəliyin əlamətlərini hiss edən şəxs ilk növbədə ilkin səhiyyə müəssisələrinə müraciət etməlidir: "Dəqiq diaqnoz yalnız vərəm əleyhinə müəssisələrdə radioloji və laborator müayinələrlə təsdiqlənir və ixtisaslı mütəxəssis tərəfindən müalicə təyin olunur. Bu xəstəliyin tam müalicəsi mümkündür. Nə qədər tez aşkarlanarsa, müalicə davam etdirilərsə, o qədər də müalicə effektiv və müddəti qısa ola bilər. Müalicədən yayınma, özbaşına müalicə və ya natamam müalicə isə vərəmi sağalmaz edə bilər".

COVID-19 və vərəm arasında oxşarlıqlar olduğunu söyləyən həkim qeyd edir ki, hər iki xəstəliyin bioloji agenti əsasən ağciyərə hücum edir: "Onların simptomları da oxşardır. Vərəm infeksiyasının COVID-19-a yoluxma üçün risk faktoru olmasını sübut edən elmi əsaslar olmasa da, vərəmli xəstə koronavirusa yoluxarsa, ağır simptomlarla rastlaşma ehtimalı böyükdür. Ona görə də vərəmli xəstə müalicə dövründə COVID-19-a yoluxsa da, təyin olunmuş vərəm əleyhinə dərmanların qəbulunu dayandırmamalıdır. Habelə vərəmdən sağalmış xəstənin koronavirusa yoluxduğu dövrdə kimyəvi profilaktik müalicə alması məqsədəuyğun hesab olunur".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***








BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5151
Sifariş 560

Qiyməti 40 qəpik